DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (358) / AVQUST 2021-Cİ İL




Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı.

…Şuşanın itirilməsi digər rayonların itirilməsinə təkan vermişdi. Ancaq biz Azərbaycan xalqı olaraq heç vaxt bu işğalla barışmaq fikrində deyildik. İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, işğal edilmiş bütün torpaqları, o cümlədən Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik.

…Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz?

…İşğal dövründə bir çoxlarımız - həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq.

**Prezident İlham Əliyev**
Şuşada Vaqif Poeziya Günlərinin açılışındakı nitqindən
30 avqust 2021-ci il


DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB — Səh. 2

NƏRİMAN QASIMOĞLU: "İMAN AĞILA SÖYKƏNƏNDƏ MÖHKƏMLƏNİR, KAMİLLƏŞİR" — Səh. 8

MİRHƏMİD MƏMMƏDOV: KƏRBƏLA FACİƏSİ ÖYRƏNİLMƏSİ VACİB OLAN MƏKTƏBDİR — Səh. 9-10

İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2019 QÜDS — Səh. 13

# PREZİDENT İLHAM ƏLİYEV:
## "AZƏRBAYCAN ÇOXMİLLƏTLİ, ÇOXKONFESSİYALI ÖLKƏDİR VƏ BURADA BİR ÇOX XALQLAR YAŞAYIR, BİR AİLƏ KİMİ YAŞAYIR"



"Bizə yeni müharibə lazım deyil. Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazidə yaşayan erməniləri biz yolunu azmış Azərbaycan vətəndaşları sayırıq. Onların sayı o qədər də çox deyil. Dəqiq məlumata görə, 25 minin altındadır. Əlbəttə ki, onlar da Azərbaycan cəmiyyətinə inteqrə olunmalıdır. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir və burada bir çox xalqlar yaşayır, bir ailə kimi yaşayır, o cümlədən ermənilər də yaşayır. Bu gün Bakıda erməni də var".

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibəsində deyib.

Bakıdakı erməni kilsəsinin təmir olunduğunu vurğulayan dövlət başçısı qeyd edib: "Bəli, əksinə, biz onu təmir etdik. O, şəhərin mərkəzində yerləşir və əgər oraya kimsə getsə görər ki, orada 5 minə yaxın erməni kitabı var. Amma bizim məscidlərimizə nə etdilər? Müqayisə üçün deyim ki, 60-dan çox məscidimizi yerlə bir etdilər. Ona görə bu gün Xankəndində və ətraf kəndlərdə yaşayan ermənilər də bizim cəmiyyətimizə mütləq inteqrə edilməlidir, onlar üçün bu, daha böyük fürsətlər yaradacaq. Ümumilikdə Cənubi Qafqazda Azərbaycan, Gürcüstan, Ermənistan arasındakı üçtərəfli əlaqələrin yaradılması üçün ilkin addımlar atılmalıdır, biz buna hazırıq".

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

Avqustun 5-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Kollegiyasının 2021-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş onlayn iclası keçirilib.

Kollegiya iclasını giriş sözü ilə açan Komitə sədri Mübariz Qurbanlı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərə diqqət çəkərək bu qələbənin əsasında ölkə başçısının məqsədyönlü müdrik siyasətinin və ordumuzun gücünün dayandığını deyib. Bildirib ki, qələbəmizi şərtləndirən amillərdən biri də xalqımızın həmrəyliyi, milli dəyərlərə, birgəyaşayış ənənəsinə verdiyi önəmdir.

Əhalinin rifah halının daha da yaxşılaşdırılması, bu istiqamətdə mühüm layihələrin həyata keçirilməsi, ölkəmizdə sosial müdafiə sisteminin etibarlılığının ən yüksək səviyyəyə çatdırılması istiqamətində Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətindən bəhs edən M.Qurbanlı Azərbaycan dövlətinin vətəndaşların dini etiqad azadlığının təminatı sahəsində də həyata keçirdiyi tədbirlərin öz müsbət bəhrəsini verdiyini deyib. Qeyd edilib ki, hazırda Azərbaycanda dini durum sabitdir, bu sahədə cərəyan edən proseslər və tendensiyalar nəzarətdədir.

Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşasının Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsi olduğunu vurğulayan Komitə sədri Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilərin dağıtdığı dini abidələrin, o cümlədən məscidlərin bərpası istiqamətində görülən işlərdən danışıb, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Şuşada yeni məscidin təməlinin qoyulmasını, Zəngilanda erməni vandallığına məruz qalan məscidin, eləcə də Ağdamda "Qiyaslı" məscidinin yenidən qurulması işlərinə başlanılmasını, "Qazançı" kilsəsində bərpa işlərinin aparılmasını dövlətimizin milli-mənəvi, tolerantlıq dəyərlərinə verdiyi önəmin növbəti təzahürü olduğunu bildirib.

Cari ilin ilk 6 ayında Dövlət Komitəsinin fəaliyyəti barədə ətraflı məlumat verən Komitə sədri qeyd edib ki, bu dövr həm də ona görə əlamətdardır ki, iyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 ili tamam olub. Hazırda Komitənin 20 illik fəaliyyətini özündə əks etdirən sənədli film üzərində iş gedir. Eyni zamanda bildirilib ki, bu il iyun ayından başlayaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi müvafiq qərara uyğun olaraq dini məbədlər (məscid, kilsə və sinaqoqlar) ibadət üçün açılıb və Dövlət Komitəsi pandemiya şərtləri çərçivəsində dini məbədlərdə keçirilən mərasimlərin monitorinqini həyata keçirməkdədir. Bu istiqamətdə, yeni Operativ Qərargahın müəyyən etdiyi tələblərdən kənara çıxılma halı qeydə alınmayıb.

Komitənin maarifləndirmə istiqamətində reallaşdırdığı layihələrə toxunan M.Qurbanlı milli-mənəvi dəyərlərimizin, birlik və həmrəyliyimizin, ölkəmizdə mövcud olan vəhdət nümunəsinin təbliği, o cümlədən erməni vandalizmi aktlarının daha geniş auditoriyaya yayılması sahəsində, habelə bu sahədə sosial istiqamətdə kompleks tədbirlər həyata keçirdiyini vurğulayıb. COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, Dövlət Komitəsinin maarifləndirmə tədbirlərini diqqətə çatdıran Komitə sədri həmin tədbirlər çərçivəsində Dövlət Komitəsinin sifarişi ilə kütləvi informasiya vasitələri və sosial medianın imkanlarından istifadə etmək, eləcə də bu sahədə maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə sənədli filmlərin, videoroliklərin çəkildiyini, bunların gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyə edilməsinə, Ermənistanın Azərbaycanın tarixi dini-mədəni irsinə qarşı törətdiyi cinayətlərin ifşa olunmasına xidmət etdiyini deyib.

Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirdiyini, dövlət tərəfindən mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə mütəmadi olaraq onlara maddi dəstək göstərildiyini xatırladaraq, növbəti belə Sərəncamın iyulun 8-də imzalandığını da diqqətə çatdırıb.

2021-ci ilin I yarısında görülmüş işlər və ölkədəki mövcud dini durum barədə hesabatla çıxış edən Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə hesabat dövrü ərzində Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olan dini icmaların dövlət qeydiyyatına alınması prosesinin davam etdirildiyini və hesabat dövründə 15 dini icmanın dövlət qeydiyyatından keçirildiyini, bununla da, dövlət qeydiyyatına alınmış dini qurumların sayının 970-ə çatdığını deyib.

davamı səh. 3

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB





əvvəli səh. 2

Vurğulayıb ki, 2021-ci ilin ilk 6 ayında Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında idxalı nəzərdə tutulan 2762 adda dini məzmunlu ədəbiyyat dinşünaslıq ekpertizasından keçirilib, nəşr olunmaq məqsədilə təqdim edilmiş 133 adda dini ədəbiyyata baxılıb, 238 adda dini təyinatlı ədəbiyyata 337 min 870 ədəd nəzarət markaları verilib.

C.Əlifzadə hesabat dövrü ərzində Komitə tərəfindən ölkədəki dövlət-din münasibətlərinin tənzimlənməsi, eyni zamanda Azərbaycan vətəndaşlarının, xüsusilə, gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd zərərli təlimlərin yayılmasının qarşısının alınması məqsədilə ayrıca və digər qurumlarla birgə (mərkəzi və yerli icra hakimiyyəti orqanları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, QMİ, müxtəlif dini konfessiyalara mənsub qurumlar, QHT-lər, şəhər və rayonlardakı Heydər Əliyev mərkəzləri, Mədəniyyət, o cümlədən Gənclər və İdman Nazirliklərinin yerli strukturları, Ombudsman Aparatının regional mərkəzləri, Yeni Azərbaycan Partiyası, hüquq mühafizə orqanları və s.) ümumilikdə 260-dan artıq onlayn formatda tədbir keçirildiyini diqqətə çatdırıb. Komitə tərəfindən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98 illiyi münasibətilə çoxsaylı tədbirlər, o cümlədən dini icmalar arasında "Heydər Əliyev irsi: Azərbaycanda dövlət-din münasibətləri" mövzusunda ənənəvi yazı müsabiqəsi təşkil olunub.

Qeyd edib ki, dövlət proqramları çərçivəsində Komitənin bölgə şöbələri tərəfindən müxtəlif mövzularda maarifləndirici tədbirlər keçirilib. Eyni zamanda Dövlət Komitəsi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti arasında "2021-ci ildə dini ekstremizmə qarşı birgə mübarizəyə dair birgə tədbirlər planı" çərçivəsində Bakı şəhəri, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Şuşa, Ağdam, Tərtər şəhər və rayonları üzrə müvafiq mərkəzi və yerli icra hakimiyyətlərinin nümayəndələrinin iştirakı ilə tədbirlər təşkil olunub.

Həmçinin İTV telekanalında yayımlanan "Cəmiyyət və Din", "Space" telekanalında yayımlanan "İnam", "Mədəniyyət" kanalında yayımlanan "Haqqın dərgahı" verilişləri vasitəsi ilə maarifləndirmə işləri davam etdirilib, Dövlət Komitəsinin mətbu orqanı olan "Dövlət və Din" ictimai fikir toplusu, "Cəmiyyət və Din" qəzeti çap edilib. Cari ilin ilk 6 ayı ərzində Komitə Azərbaycanın dövlət-din münasibətlərinin, tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, xüsusilə Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq hesabatlarda ölkəmizə qarşı qərəzli yanaşmanın aradan qaldırılması, qeyri-müsəlman icmaların fəaliyyəti ilə əlaqədar məsələlərin tənzimlənməsi, xarici ölkələrdəki dini təşkilatlarla ikitərəfli əlaqələrin təmin edilməsi istiqamətində fəaliyyətini davam etdirib.

Şöbə müdiri bildirib ki, Komitə sədrinin müəllifliyi ilə "Ermənistanın Azərbaycanı azad edilmiş ərazilərdə "mədəni cinayətlər" törətmək barədə əsassız iddiaları" adlı məqaləsi bir çox xarici ölkə mətbuatında işıqlandırılıb.

Hesabat dövründə Komitə ikinci dəfə başlatdığı "Könüllü fəaliyyət" layihəsini yekunlaşdırıb, Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının 5.5-ci bəndinə əsasən Komitə yanında İctimai Şuranın yenidən formalaşdırılması prosesi çərçivəsində Şuraya seçkilər keçirilib.

Komitənin bütün istiqamətlər üzrə fəaliyyəti KİV-də, rəsmi saytında, sosial şəbəkələrdə operativ şəkildə işıqlandırılıb. Komitənin rəsmi saytı vasitəsilə (scwra.gov.az) məlumatların açıqlığı və əlçatanlığı təmin edilib, sosial şəbəkələrdəki rəsmi hesablar üzərindən paylaşılan film və videoçarxları ümumilikdə 100 mindən çox sosial şəbəkə istifadəçisi izləyib.

Daha sonra Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) 2021-ci ilin I yarısında fəaliyyəti və cari ildə görüləcək işlərə dair hesabatla Fondun icraçı direktoru Mehman İsmayılov çıxış edib. Bildirib ki, MDTF tərəfindən cari ilin ilk 6 ayı ərzində dini etiqad sahəsində işlər davam etdirilib, o cümlədən bir sıra İslam və qeyri-islam dini icmalarının maarifləndirici layihələrinə maddi dəstək göstərilib. Fondun dəstəyi və təşkilatçılığı ilə Alban-Udi Xristian dini icmasının üzvləri işğaldan azad edilmiş Xocavənd rayonunun Tuğ kəndindəki Alban məbədini, eyni zamanda Kəlbəcər rayonunda yerləşən Xudavəng məbədini və Laçın rayonu ərazisində yerləşən qədim alban məbədi "Ağoğlan" monastırını ziyarət ediblər.

MDTF Müqəddəs Ramazan ayı münasibətilə müsəlman dini icmalarla birlikdə keçirilən "Şəhid ailələrinə Ramazan sovqatı" aksiyası çərçivəsində ölkənin 12 şəhər və rayonunda ümumilikdə 720 nəfər Vətən Müharibəsi şəhidinin ailəsi ziyarət edilib və onların hər birinə alış-veriş kartı hədiyyə olunub. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən dini icma sədri və din xadimlərinin hər birinə Fond tərəfindən 500 manat məbləğində birdəfəlik maddi yardım göstərilib.

Mehman İsmayılov qeyd edib ki, Mənəvi Dəyərlərin Təbliği Fondu 2021-ci ildə təhsilalanların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun 20 tələbəsinə 100 manat, 21 tələbəsinə 150 manat məbləğində aylıq təqaüd verib və 1 nəfər tələbə üçün adıçəkilən təhsil müəssisəsi tərəfindən təsis edilmiş 200 manat məbləğində "Heydər Əliyev mükafatı"nı maliyyələşdirib. Eyni zamanda, Fond tərəfindən 44 günlük Vətən Müharibəsində şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsini yad etmək, onların övladlarını sevindirmək məqsədilə 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Şəhid yadigarları" adlı aksiyada ölkəmizin 8 şəhər və rayonunda 127 nəfər Vətən Müharibəsi şəhidlərinin övladları ziyarət edilib, onlara müxtəlif hədiyyələr təqdim edilib. Həmçinin, Fondun maliyyə dəstəyi ilə Bakı şəhərində 61 nəfər, Gəncə, Qazax və Ağstafa rayonlarında 139 nəfər şəhid və qazi ailəsinin övladlarına hədiyyələr təqdim edilib.

M.İsmayılov Azərbaycandakı Alban tarixi-dini abidələrinin geniş auditoriyada təbliği, müxtəlif bölgələrimizdə yerləşən, keçmişimizin izlərini özündə əks etdirən bu abidələrin daha çox öyrənilməsi, eləcə də qalib elan edilən materialların müxtəlif internet resurslarında xarici dillərdə (rus və ingilis dillərində) yayılmasının həyata keçirilməsi məqsədi ilə MDTF tərəfindən "Mənəvi mirasımız: Alban dini məbədlərimiz" adlı videoçarx müsabiqəsinin keçirildiyini və müsabiqənin qaliblərinin Fond tərəfindən mükafatlandırıldığını qeyd edib.

Azərbaycan İlahiyyat İnstitutunun 2021-ci ildə fəaliyyəti və 2020-2021-ci tədris ilinə hazırlıq işləri barədə məlumatlarla çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Mübariz Camalov bildirib ki, hesabat dövründə İnstitutda mövcud pandemiya şəraitinə uyğun olaraq müxtəlif mövzularda ictimaiyyət nümayəndələri, elm xadimləri, eləcə də institut əməkdaşlarının və tələbələrin iştirakı ilə 25 dən çox onlayn tədbir (konfrans, seminar, vebinar, müsabiqə və s.) təşkil edilib.

Hesabat dövründə institutun müəllim və əməkdaşları tərəfindən 5 kitab və monoqrafiya, 2 dərslik və dərs vəsaiti, 12 fənn proqramı, 1 xaricdə həmmüəllif kitab, 3 tərcümə əsəri, yerli və beynəlxalq elmi jurnallarda 22 məqalə, elmi-publisistik jurnallar və qəzetlərdə 11 məqalə, respublika və beynəlxalq konfrans və ya simpoziumlarda 17 tezis və məqalə nəşr olunub. İnstitutun "Din araşdırmaları" və "İlahiyyat" elmi-publisistik jurnalları, eləcə də ali təhsil müəssisəsinin fəaliyyətini əks etdirən bülleten, həmçinin "İlahiyyat nəşrləri" layihəsinə əsasən müəllimlərin kitabları, bukletlər, qeydiyyat kitabları və digər multimedia materialları nəşrə hazırlanıb.

Mübariz Camalov vurğulayıb ki, hesabat dövrü ərzində "Ramazan orucunun hikməti, yaxud nə üçün oruc tuturuq", "Oruc və nəfs tərbiyəsi", "Səmavi dinlərdə oruc", "Ramazan və Quran", "Orucluğun tarixi", "Qədr gecəsi", "Ramazan ayının fəziləti", "Fitrə sədəqəsi" və "Bayram namazı" mövzularında Aİİ-nin müəllimlərinin iştirakı ilə maarifləndirici videolar hazırlanıb, ictimaiyyətə təqdim olunub.

Aİİ öz fəaliyyətində xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması məqsədilə hesabat dövründə Azərbaycan İlahiyyat İnstitutu ilə Pakistan İslam Respublikasının Müsəlman İnstitutu arasında Anlaşma Memorandumu imzalanıb.

Daha sonra Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qarşıdan gələn Məhərrəm ayı ilə bağlı Komitə tərəfindən görüləcək maarifləndirmə tədbirləri ilə bağlı məruzə edib, gələcək hədəflər, problem və perspektivlər geniş müzakirə edilib.

Dövlət Komitəsinin sədr müavinləri Sahib Nağıyev, Səyavuş Heydərov, həmçinin Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev gündəlikdə olan məsələlərlə bağlı fikirlərini bölüşüblər.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Avqustun 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.

Qardaş ölkənin səfirini Azərbaycandakı təyinatı münasibətilə təbrik edən Mübariz Qurbanlı hər sahədə yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə münasibətlərinin daim gücləndiyini, eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olan iki ölkənin xalqları arasında əlaqələrin daim inkişaf etdiyini diqqətə çatdırıb. O bildirib ki, Türkiyə-Azərbaycan arasında tarix boyu formalaşmış qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi, bütövlükdə türk-İslam dünyasının mədəni-mənəvi vəhdətinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi yolunda iki ölkə hər zaman səy göstərib və göstərməkdə də davam edəcək.

Komitə sədri 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdə - Azərbaycanın haqlı mübarizəsində Türkiyənin həmişə olduğu kimi xalqımızı yalnız qoymayaraq bütün dünyaya Qarabağın Azərbaycanın əzəli torpaqları olduğunu, heç bir ölkənin Azərbaycana mane ola bilməyəcəyini bəyan etməsini, "bir millət, iki dövlət" prinsipinə sadiq olaraq müharibə dövründə həm mənəvi, həm də siyasi müstəvidə ölkəmizin yanında olduğunu bildirib.

Səfir də öz növbəsində Dövlət Komitəsinin sədrinə səmimi təbriki üçün təşəkkür edib. O, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərindən, bu əlaqələrin sağlam və davamlı inkişafından danışaraq bildirib ki, fəaliyyət göstərəcəyi müddət ərzində bu əlaqələrin daha da genişlənməsi üçün səylərini əsirgəməyəcək. Son günlər Türkiyədə baş verən meşə yanğınlarına toxunan Cahit Bağçı Türkiyənin güclü dövlət olduğunu və bu sınaqdan üzüağ çıxacağını, Azərbaycan dövlətinin yanğınların söndürülməsinə ilk günlərdən göstərdiyi dost və qardaş dəstəyinin təqdirəlayiq olduğunu vurğulayıb.

Səfir Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və ölkələrimiz arasında tarixi Şuşa Bəyannaməsinin imzalanmasının əhəmiyyətinə toxunub.

Görüşün sonunda Səfirə Dövlət Komitəsinin nəşr etdirdiyi, Azərbaycanın multikultural və milli-mənəvi dəyərlərindən bəhs edən kitablar hədiyyə edilib.

* * *

DQİDK sədri Mübariz Qurbanlı avqustun 26-da Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə ölkəmizə səfər edən nümayəndə heyətini salamlayan M.Qurbanlı Azərbaycan və gürcü xalqlarını tarixi dostluq əlaqələrinin bağladığını, iki ölkə arasında münasibətlərin yüksək səviyyədə qurulduğunu qeyd edib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1996-cı ildə Gürcüstana rəsmi səfərinin ölkələrimiz arasındakı əlaqələrin inkişafında yeni səhifə açdığını vurğulayan komitə sədri mehriban qonşuluq və əməkdaşlıq əlaqələrinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. DQİDK-nin sədri Ermənistanın işğalı altında olan Azərbaycanın tarixi torpaqlarının azad olunması ilə yekunlaşan 44 günlük Vətən müharibəsində ölkəmizin ədalətli mövqeyinin bir çox ölkə kimi Gürcüstan tərəfindən də müdafiə edildiyini xüsusi vurğulayıb.

Ölkəmizdəki dövlət-din münasibətləri, tolerant və multikultural mühit haqqında qonaqları məlumatlandıran sədr Prezident İlham Əliyevin dini sahəyə daim diqqət və qayğı göstərdiyini, ayrı-ayrı dini icmalara münasibətdə heç bir fərq qoyulmadığını və bu münasibət sayəsində Azərbaycanın zəngin tolerantlıq və multikultural dəyərlərinin qorunduğunu deyib. Qeyd edib ki, əsası Ulu Öndərimiz tərəfindən qoyulan siyasətin uğurlu davamı kimi son illərdə Azərbaycanda milli-mənəvi dəyərlərimiz və birgəyaşayış ənənələrimizin qorunması, başqa dinlərə qarşı tolerant münasibətin daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Dövlətimizin başçısı müxtəlif dinlərə aid tarixi-memarlıq abidələrinin, ibadət və inanc yerlərinin təmiri və bərpası, dini qurumlara maddi yardımların ayrılması ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. İşğaldan azad edilmiş ərazilərimizdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan tərəfindən vandalizmə məruz qalmış məscid və məbədlərin, eləcə də saxtalaşdırma və mənimsəməyə məruz qalmış qədim alban xristian irsinin bərpa və konservasiyası istiqamətində işlər görür. O, Heydər



Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələrinin Azərbaycanın sərhədləri ilə məhdudlaşmadığını bildirərək fondun Gürcüstanda həyata keçirdiyi işlərə diqqət çəkib.

Ölkə ərazisində 2253 məscidin mövcud olduğunu, 16 kilsə, 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edən Mübariz Qurbanlı əlavə edib ki, 2-si gürcü pravoslav xristian dini icması olmaqla 37 qeyri-İslam təmayüllü dini icma dövlət qeydiyyatından keçirilib. Bildirib ki, dini icmaların fəaliyyətinin yaxşılaşdırılması, dini maarifçilik işinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən maliyyə yardımı ayrılan icmalar içərisində gürcü pravoslav dini icmaları da yer alır.

Dəvətə və səmimi görüşə görə təşəkkürünü bildirən Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze Azərbaycan xalqını işğal altından torpaqların azad olunması ilə nəticələnən böyük zəfər münasibətilə təbrik edib. Ölkəsindəki dini mühit, müsəlman icmaları barədə danışan Agentlik sədri Gürcüstan hökumətinin ölkənin müsəlman icmasına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini söyləyib. Z.Vaşakmadze Gürcüstanda 300-ə qədər məscidin olduğunu, əhalinin 10 faizini müsəlmanların təşkil etdiyini, İslam dininə mənsub əhalinin öz dini bayramlarını yüksək səviyyədə qeyd etdiklərini və dövlət tərəfindən İslam dini icmalarına maddi yardım ayrıldığını vurğulayıb. Ölkəmizdə gürcü icmasına göstərilən diqqəti də məmnunluqla dilə gətirən qonaq Azərbaycan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mövcud təcrübəsindən yararlanmaq məqsədilə dini sahədə mövcud əlaqələrin möhkəmləndirilməsinin zəruriliyinə toxunub. Gürcüstanda "Dini etiqad azadlığı haqqında" Qanunun hazırlanması istiqamətində işlər getdiyini bildirən Z.Vaşakmadze bu məsələdə Azərbaycanın təcrübəsini öyrənməkdə maraqlı olduqlarını qeyd edib.

Görüş zamanı DQİDK-nın tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu və Gürcüstanın müvafiq ali təhsil ocaqları arasında əlaqələrin qurulması və Dövlət Komitəsi ilə Gürcüstan Dini Məsələlər üzrə Dövlət Agentliyi arasında memorandumun imzalanması, dini radikalizmə qarşı mübarizə sahəsində fikir və təcrübə mübadiləsinin aparılması, eləcə də Mənəvi Dəyərlərin Təbliği Fondu ilə əlaqələrin daha da genişləndirilməsi barədə müzakirələr aparılıb.

Gürcüstanın Azərbaycan Respublikasındakı səfiri Zurab Pataradzenin də iştirak etdiyi görüşün sonunda qonaqlara DQİDK tərəfindən ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr olunmuş kitablar təqdim edilib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Böyük Britaniyalı siyasətçi və hüquqşünas, Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin sabiq sədri Səccad Heydər Kərim ilə görüşüb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət-din münasibətlərinin, dövlət din siyasətinin uğurla davam etdirilməsi sayəsində ölkəmizdə tolerantlıq və birgəyaşayış mühitinin nümunəvi modeli formalaşıb, respublikamız dünyada multikulturalizm mərkəzinə çevrilib. S.Heydərov vurğulayıb ki, bu gün Azərbaycan vəhdət, həmrəylik prinsiplərinin daim qorunmasına böyük səylərlə çalışır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət-din siyasəti öz müsbət bəhrəsini verməkdədir. Bütün bunların nəticəsidir ki, 44 günlük Vətən müharibəsində müxtəlif xalqların və dinlərin mənsubu olan azərbaycanlılar çiyin-çiyinə, vətənpərvərliklə döyüşərək qanları, canları bahasına işğala son qoydular. İstər döyüş meydanında, istər ideoloji mübarizədə, istərsə də haqq səsimizin beynəlxalq səviyyədə eşidilməsində dini konfessiyalar müstəsna xidmətlər göstərdilər".

Komitə sədrinin müavininin sözlərinə görə, respublikamızda bütün dinlərə, konfessiyalara bərabər münasibət göstərilir və dini etiqad azadlığı yüksək səviyyədə təmin olunur.



S.Kərim qəbula görə təşəkkürünü bildirərək vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev öz ölkəsinin maraqlarını hər şeydən üstün tutan, dünyanın müdrik liderlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ münaqişəsinin həll edilməsi regionda sülh və təhlükəsizliyin bərqərar olmasında olduqca mühümdür. Qeyd edib ki, Azərbaycanda multikulturalizm həyat tərzi kimi qəbul edilir və bu, təqdirəlayiq haldır.

Qonaq ölkəmizin erməni işğalından azad olunmuş bölgələrinə səfər edəcəyini də diqqətə çatdırıb.

# "KÜTLƏVİ DİNİ MƏRASİMLƏR: İCTİMAİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI" MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB

Avqustun 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Kütləvi dini mərasimlər: ictimai təhlükəsizliyin təmin olunması" mövzusunda videokonfrans keçirilib.

Videokonfransda Prezident Administrasiyası, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Qafqaz Müsəlmanları İdarəsinin məsul şəxsləri, Lənkəran şəhəri, Salyan, Cəlilabad, Neftçala, Biləsuvar, Astara, Lerik, Yardımlı və Masallı rayonları üzrə icra hakimiyyəti orqanları, o cümlədən sözügedən orqanların yerli strukturlarının nümayəndələri, din xadimləri iştirak ediblər.

Giriş sözü ilə çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov videokonfransın aktual mövzuya həsr edildiyini, digər illərdən fərqli olaraq bu il də Aşura mərasiminin pandemiya ilə əlaqədar olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi mövcud qaydalara əsasən həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Səyavuş Heydərov təəssüflə qeyd edib ki, dini ayinlərin, mərasimlərin təşklinə də təsir edən pandemiya şəraitində ibadətlərin dövrün tələblərinə uyğun həyata keçirilməsinə bəzi qüvvələr başqa don geyindirməyə çalışırlar. Maraqlı dairələrin əlində alətə çevrilmiş, xurafata meyilli şəxslər sağlamlığa yönəlmiş məhdudiyyətlərin İslama qarşı olduğunu iddia edirlər. Vətəndaşlarımızın sağlamlığının təhlükə altında olduğu dövrdə atılan zəruri addımlara bu cür münasibət qərəzli olmaqla yanaşı, hansısa qruplaşmaların və ya fərdlərin öz maraqlarını din adından istifadə edərək həyata keçirməyə cəhd etmələri dinin özünə də zərbə vurur.

Komitə rəsmisi qeyd edib ki, Azərbaycanda dinə, milli-mənəvi, tolerant dəyərlərə münasibət, eləcə də diqqət və qayğı həmişə yüksək olub.

Ulu Öndərimiz Heydər Əliyevin qoyduğu yolun davamı olaraq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vətəndaşların ölkədə dini etiqad azadlığını həyata keçirmələri üçün bütün şəraitin yaradılması, məscidlərin, ziyarətgahların tikilməsi, təmir-bərpası, dini icmalar və din xadimlərinin fəaliyyətinin dəstəklənməsi məsələlərini prioritet kimi müəyyənləşdiriblər. Dövlətin uzun illər dini icmalarla multikulturalizm və tolerantlıq prinsipləri əsasında həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün ölkəmizdə dini həmrəylik ən yüksək səviyyədə təzahür edir. Bunun nəticəsini real olaraq 44 günlük Vətən müharibəsində gördüyümüzü vurğulayan sədr müavini dövlətimizin vaxtında gördüyü tədbirlər, atdığı lazımi addımlar və milli-dini həmrəyliyimiz sayəsində Ermənistanın münaqişəni dini motivə çəkmək cəhdlərinin də iflasa uğradığını deyib.

Çıxışında din ilə elmin vəhdətinin zəruriliyinə də toxunan S.Heydərov söyləyib ki, dini inancın elmi təfəkkürlə əlaqəsi çox mühüm məsələlərdən biridir. Elmi texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə hər bir dəyər elmlə uzlaşmalıdır. Xurafat elementləri, məzhəbçilik ideyaları və siyasiləşdirilmiş dinin daşıyıcıları dinimizin düşmənləridir. Yaxın Şərq ölkələrindəki vəziyyəti xatırladan natiq bildirib ki, Azərbaycanın böyük Zəfərini gözü götürməyən qüvvələrin ölkəmizə qarşı dini zəmində yönəlmiş təhdidlərini nəzərə alsaq, biz də bu neqativ proseslərdən sığortalanmamışıq. O, İslam dininin həqiqi mahiyyətinə uyğun olaraq, təbliğ edilməsində,



dinin elmi tərəflərinin cəmiyyətə aşılanmasında din xadimlərinin də üzərinə böyük məsuliyyət düşdüyünü deyib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndəsi Qədir Məmmədov çıxış edərək bildirib ki, bu ilki Məhərrəm ayı ilə bağlı tədbirlərə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi ilə əldə edilən qələbədən doğan qürur hissi əlavə olunub. Qədir Məmmədov, həmçinin məsul qurumların əməkdaşları, eyni zamanda din xadimlərinin Məhərrəm ayında keçiriləcək mərasimlərin yüksək səviyyədə təşkili ilə bağlı üzərlərinə düşən vəzifələr və görülən işlər barədə də ətraflı məlumat verib.

Daxili İşlər Nazirliyinin nümayəndəsi Oqtay Tağıyev pandemiya şəraitində dini mərasimlərin həyata keçirilməsi tələblərini diqqətə çatdıraraq Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda ibadət və mərasimlərin karantin qaydalarına uyğun olaraq keçirilməsinin vacibliyini vurğulayıb. O bu istiqamətdə dini icmalar, din xadimləri, eyni zamanda dindarlarla izahedici profilaktik söhbətlərin aparıldığını, müvafiq qabaqlayıcı tədbirlərin həyata keçirildiyini bildirib. Mərasimlərin Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının və səlahiyyətli nümayəndələrinin Məhərrəm ayının başlaması ilə əlaqədar müraciətində öz əksini tapan tövsiyələr və Operativ Qərargahın müəyyən etdiyi qaydalar əsasında baş tutmasının zəruriliyini qeyd edib.

Çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) şöbə müdiri Vəfadar Əliyev keçirilən konfransın aktuallığına toxunaraq bildirib ki, istər dini, istər digər təmayüllü kütləvi tədbirlər təşkil olunan zaman buradakı insanların idarə olunması üçün 2 cür – "kütlə" və "cəmiyyət" yanaşmaları mövcuddur. Din xadimləri məhz "cəmiyyət" təfəkkürünü əsas götürərək, insanların təhlükəsizliyinin təmin edilməsi və ictimai sabitliyin qorunmasına öz töhfələrini əsirgəməməlidir. QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin Məhərrəm ayı ilə bağlı ruhanilərə tövsiyələrindən də bəhs edən şöbə müdiri, bölgə qazılarına öz işlərini daim DQİDK və hüquq mühafizə orqanlarının əməkdaşları ilə əlaqəli şəkildə həyata keçirmələrinin tapşırıldığını vurğulayıb.

Azərbaycan İlahiyyat İnstitutunun prorektoru Mübariz Camalov isə İslamın elmə verdiyi dəyər haqqında danışaraq Qurani-Kərimin bir neçə ayəsindən sitat gətirib. İslamın düşüncə, bilmə tərəfdarı olaraq ortaya çıxdığını, qarşısına cəhaləti aldığını bildirən prorektor qeyd edib ki, dinimiz cəhalətə qarşı mübarizəni düşüncə ilə aparıb. Qeyd edib ki, cəhalət kor-koranə təqlidə, məzhəbçiliyə gətirib çıxarır, Yaxın Şərqdəki proseslər bunu sübut edir. O, eyni zamanda Məhərrəmlik mərasimlərinin həyata keçirilməsi zamanı bu ayın əsl fəlsəfi mahiyyətinin, böyük mənəvi-əxlaqi əhəmiyyətinin fərqində olmanın vacibliyinə toxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov eyni dinin nümayəndələrinin müxtəlif əlkələrdə fərqli baxışlara malik olmasından danışıb. O bildirib ki, son illər radikal, fanatik dini baxış yürüdən bəzi ölkələrin əksinə, Azərbaycan İslam dininin sevgi və irfan tərəflərini üzə çıxardır. 44 günlük Vətən müharibəsində şahid olduq ki, işğaldan azad olunan torpaqlarımızda hərbi qulluqçuların ilk getdikləri yerlərdən biri həmin bölgələrdəki məscidlər idi. Həmin vaxt sırf əsgərlərimizin öz istəyi, təşəbbüsü ilə Şuşadakı Gövhər Ağa məscidində qılınan Vəhdət namazı Azərbaycanın İslam dəyərlərini də özündə ehtiva edən çox böyük bir mədəniyyətin daşıyıcısı olduğunu bir daha sübut etdi. İslamda mərasimlər məsələsinə də toxunan icraçı direktor dinin siyasiləşməsinin, hər hansı insanların və ya qrupların əlində alətə çevrilməsinin yolverilməz olduğunu vurğulayıb.

Videokonfrans müzakirələrlə öz işini yekunlaşdırıb.

# DÖVLƏT KOMİTƏSİNİN ƏMƏKDAŞLARINA MEDALLAR TƏQDİM OLUNUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2021-ci il tarixli müvafiq Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibəti və dövlət-din münasibətlərinin tənzimlənməsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuş əməkdaşlara avqustun 4-də medalların təqdim olunması mərasimi keçirilib.

Komitə sədri Mübariz Qurbanlı Prezident İlham Əliyev tərəfindən dövlət qulluqçularının fəaliyyətinə xüsusi diqqət və qayğı göstərildiyini, dövlət qulluğunda səmərəli fəaliyyəti ilə seçilən əməkdaşların daim dəyərləndirildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyevin: "Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir."- ifadəsini xatırladan Komitə sədri dövlət qulluğunun məsuliyyətindən bəhs edərək əməkdaşları bir daha təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Təltif olunmuş Komitə əməkdaşları çıxış edərək fəaliyyətlərinin yüksək qiymətləndirilməsinə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# AZƏRBAYCANDA SƏFƏRDƏ OLAN GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTİ FƏXRİ XİYABANDA ULU ÖNDƏRİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB





Azərbaycanda səfərdə olan Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin rəhbərlik etdiyi nümayəndə heyəti avqustun 26-da Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.

Nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər güllər düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər qoyulub.

Nümayəndə heyəti, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər çiçəklər düzüb, “Əbədi məşəl” abidəsini ziyarət edib.

Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin başçılıq etdiyi nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# “BU GÜNÜN HƏQİQƏTLƏRİNİ SABAHKI NƏSİLLƏRƏ ÇATDIRMAQDA BELƏ FİLMLƏRİN ROLU OLDUQCA BÖYÜKDÜR”

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında çəkilən “Vətən naminə”, “Erməni vandalizmi”, “Qarabağın tarixi-dini abidələri” sənədli filmləri, o cümlədən Komitənin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi, “Azərbaycan Bibliya Cəmiyyəti”nin sifarişi ilə ərsəyə gələn “Mənəvi borc” filmi Xəzər televiziyasında nümayiş etdirilib.

Ordumuzun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqların əbədiləşdirilməsi, habelə erməni vandalları tərəfindən törədilən vəhşiliklərin unudulmaması baxımından bu cür filmlərin hazırlanmasının tarixi-ictimai və mənəvi əhəmiyyəti nədən ibarətdir? Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə hazırlanan bu filmləri xalqımız və dövlətimiz qarşısında mühüm tarixi xidmət kimi dəyərləndirmək mümkündürmü?

Moderator.az-a açıqlama verən millət vəkili Məşhur Məmmədov bu kimi filmlərin bu günümüzlə yanaşı, gələcəyimiz baxımından da mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb: “Tarix sübut edir ki, bizim başımıza gələn bir çox bəlalara səbəb məhz bizim unutqanlığımız olub. Elə buna görə də tariximiz, keçmişimizlə bağlı həqiqətləri daim diqqət mərkəzində saxlamaq, onların unudulmasına yol verməmək üçün bu cür filmlərin çəkilməsi vacibdir.

44 günlük Vətən müharibəsində Azərbaycan ordusu böyük qəhrəmanlıqlar göstərdi. Hərbçilərimiz düşmən işğalındakı torpaqları çox qısa zamanda işğaldan azad etdi. Torpaqlarımız işğaldan azad olunandan sonra biz bir daha şahid olduq ki, düşmən bu torpaqlarda böyük vəhşiliklər, dağıntılar və talanlar həyata keçirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, eləcə də sözügedən komitənin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə çəkilən filmlərdə həm xalqımızın müharibədə göstərdiyi əzm və fədakarlıq, həm də erməni faşizminin anti-insani mahiyyəti parlaq şəkildə öz əksini tapır. Bu filmlər tariximizin qorunması, olduğu kimi xatırlanması, yaşadılması üçün böyük önəm kəsb edir. Bu günün həqiqətlərini sabahkı nəsillərə çatdırmaq üçün belə filmlərin çəkilməsi olduqca əhəmiyyətlidir. Bu cür filmlər gələcək nəsillərə imkan verəcək ki, tariximizə dərindən bələd olsunlar, üzləşdiyimiz bəlalardan dərs çıxarsınlar və daim ayıq-sayıq olsunlar.

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə ərsəyə gətirdiyi filmlərə görə təşəkkür edirəm. İnanıram ki, həm Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, həm də digər dövlət qurumlarının dəstəyi ilə bu cür filmlərin hazırlanması gələcək nəsillərin maariflənməsi baxımından mühüm rol oynayacaq, hər zaman gələcək nəsillərə hərbçilərimizin qəhrəmanlığından, erməni vandallarının törətdiyi vəhşiliklərdən danışacaq”.

## GÜRCÜSTANDAKI SOYDAŞLARIMIZA 2300-DƏN ÇOX “QURANİ-KƏRİM” GÖNDƏRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu Gürcüstan Müsəlmanları İdarəsinin müraciəti əsasında nəşr etdirdiyi 2300-dən çox “Qurani-Kərim” kitabını (Azərbaycan dilində) soydaşlarımızın istifadəsi üçün Gürcüstana göndərib.



Kitabların göndərilməsində əsas məqsəd Gürcüstanda yaşayan soydaşlarımızın dini maariflənməsinə dəstək olmaqdır.

Müqəddəs kitabları qəbul edən Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Ramin İgidov belə gözəl təşəbbüsə görə DQİDK rəhbərliyinə və Mənəvi Dəyərlərin Təbliği Fonduna ölkə müsəlmanları və soydaşlarımız adından təşəkkürünü bildirib. Dini sahədə əməkdaşlığa hər zaman hazır olduğunu vurğulayan R.İgidov Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyib.

## İƏT MÜSTƏQİL DAİMİ İNSAN HÜQUQLARI KOMİSSİYASI ƏFQANISTANLA BAĞLI BƏYANAT YAYIB

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyası (IPHRC) öz bəyanatında Əfqanıstanda insan hüquqları və humanitar vəziyyəti yaxından izlədiyini bildirib.

Bəyanatda Əfqanıstanda daxili vəziyyətin sabitləşməsi, xaos və qanun pozuntularına son qoyulması, demokratik institutların bərpası, bütün hallarda fundamental insan hüquq və azadlıqlarının təmin edilməsi, həqiqi İslam dəyərlərinə ehtiram göstərilməsinin zəruriliyi vurğulanıb.

IPHRC bildirib ki, Talibanın Kabili ələ keçirməsindən sonra əfqan xalqının və Əfqanıstanda olan əcnəbilərin həyatı və təhlükəsizliyi üçün yaranmış təhdidlər aradan qaldırılmalı, xeyirxahlığı öyrədən İslam dininə uyğun şəkildə insan hüquqları və ləyaqəti qorunmalıdır. Eyni zamanda, COVID-19 pandemiyası şəraitində Əfqanıstanda yaranmış ağır vəziyyət də nəzərə alınmalıdır.

Bəyanatın sonunda BMT və İƏT-in əfqan cəmiyyəti ilə inklüziv dialoqu vasitəsilə, ilk növbədə, qadınların, uşaqların, məcburi köçkünlərin, əlillərin, təhsil və media işçilərinin humanitar ehtiyaclarının təmin edilməsi barədə çağırış yer alıb.

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ QANVERMƏ AKSİYASI KEÇİRİLİB





Avqustun 19-da Qafqaz Müsəlmanları İdarəsində Aşura günü ilə bağlı qanvermə aksiyası keçirilib. Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə başda olmaqla idarə əməkdaşları, ölkəmizdə fəaliyyət göstərən konfessiyaların nümayəndələri iştirak ediblər.

Aşura günü münasibətilə Qafqaz müsəlmanları adından Azərbaycan və dünya müsəlmanlarına başsağlığı verən şeyxülislam ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman övladlarımıza Allahdan rəhmət diləyib, ailələrinə və yaxınlarına səbir, dəyanət arzulayıb, qazilərimizə şəfa diləyib.

A.Paşazadə qeyd edib ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən bəri biz ilk dəfədir ki, Aşuranı qalib xalq kimi qeyd edirik. Öz milli-mənəvi dəyərlərinə sıx bağlı olan Azərbaycan xalqı Allahın izni, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və onun yaxın silahdaşı Mehriban xanım Əliyevanın qətiyyəti, Ordumuzun rəşadəti sayəsində torpaqlarımızı erməni işğalından azad etdi. 44 günlük Vətən savaşında tarixi Qələbəmiz sayəsində əzəli ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır, Şuşa və Ağdam məscidlərinin minarələrindən səslənən azan sədaları ana Vətən yolunda şəhadətə yetənlərin mənəvi qələbəsini simvolizə edir.

Aşura günündə tibbi ehtiyacı olanlara qan vermək təşəbbüsünün cəmiyyətdə müsbət qarşılandığını xatırladan şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycanda yaşayan digər konfessiyaların təmsilçiləri də bu xeyirxah aksiyada yaxından iştirak edirlər. Bu amilin özü də ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə, dünyaya örnək şəkildə qurulduğunun bariz nümunəsidir. QMİ sədri vurğulayıb ki, bu gün uğurla davam etdirilən bu siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Xalqımızın dini və milli-mənəvi dəyərlərinə bağlı olan Ulu Öndərin Təzə Pir məscidində keçirilən Aşura mərasimində iştirakını xatırladan şeyxülislam bildirib ki, həmin gün Heydər Əliyevin səsləndirdiyi tövsiyələr, xalqımızı birliyə çağıran fikirlər bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilir.

Məhərrəmlik mərasimlərinin dünyada tüğyan edən koronavirus pandemiyası dövrünə təsadüf etdiyini vurğulayan A.Paşazadə dindarları Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməyə, xalqımızı pandemiya ilə mübarizədə ən təsirli vasitə sayılan peyvəndlərin vurulmasında daha fəal iştirak etməyə çağırıb.

QMİ sədri xalqımızın rifahı, dövlətimizin daha da qüdrətlənməsi üçün dualar edib, Allahdan dövlət rəhbərimizin Azərbaycanın gələcəyi naminə fəaliyyətinə rəvac verməsini diləyib.

Mərasimdə Dağ yəhudiləri icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin təmsilçisi Konstantin Pimonov, Avropa yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovski iştirak ediblər.

Qeyd edək ki, Dini mərkəz olaraq Qafqaz Müsəlmanları İdarəsinin Səhiyyə Nazirliyi ilə birgə keçirdiyi qanvermə aksiyası gün ərzində Bakıda və rayonlarda təşkil olunan məntəqələrdə davam edib. Toplanan qan hemofiliya və talassemiya, həmçinin digər xəstəlikdən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

# “XXI əsrdən baxış: din və qadın”




Avqustun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağcabədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “XXI əsrdən baxış: din və qadın” mövzusunda videokonfrans keçirilib.

Rayonun aktiv qadınları, təhsil işçiləri və gənclərin qatıldığı videokonfransı giriş sözü ilə açan Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının böyük məsləhətçisi, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Vüsalə Məmmədova mövzunun əhəmiyyətinə diqqət çəkib. Bildirib ki, ailələrin möhkəm, sağlam olması Azərbaycan dövlətinin diqqəti və qayğısı ilə əhatə olunub. Müstəqil Azərbaycanda ailə siyasətinin əsas prinsipləri uğurla həyata keçirilir. Bu fakt bir daha sübut edir ki, Azərbaycan ailəsi dövlətin himayəsindədir. Dövlət ailə institutunun təməllərinin möhkəmliyini təmin etmək, onun nüfuzunun artmasına nail olmaq üçün ciddi addımlar atır. V. Məmmədova, eyni zamanda bu istiqamətdə cəmiyyət üzvlərinin aktiv və məsuliyyətli olmalarının vacibliyi barədə danışaraq biganəliyin erkən nikah, qadın zorakılığı və s. bu kimi problemlərin artmasına səbəb olduğunu deyib.



DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva təəssüflə bildirib ki, əfsuslar olsun ki, cəmiyyətimizdə qadınların ailədaxili zorakılığa və diskriminasiyaya məruz buraxılma, erkən nikaha daxil olma, narkotik vasitələrin istifadə və satışına məcbur edilməsi hallarına rast gəlinir. Sevindirici məqamdır ki, Ağcabədi erkən nikahların azlığı baxımından Aran Qarabağın ən öndə gələn rayonlarından biridir.

Ardınca erkən nikah və onun fəsadları ilə bağlı təqdimatla çıxış edən şöbə müdiri qeyd edib ki, ailədaxili problemlərin bir çoxu qızların erkən yaşda evləndirilməsindən qaynaqlansa da, bəzən kifayət qədər yaşı və təhsili olan ailələrdə də belə neqativ hallar müşahidə edilir. Bəzən ailə daxilində fiziki və ya psixoloyi şiddət görən qadınlara öz valideynləri, bacı-qardaşları, digər yaxınları dəstək olmur, onlar mənəvi cəhətdən boşluğa düşür və heç də düzgün olmayan intihar yolunu seçirlər. Bütün bunlarla mübarizə tədbirlərini ilk növbədə qadınlar dünyaya gətirdikləri övladlarını düzgün tərbiyə etməklə, onları cəmiyyətə yararlı şəxsiyyət kimi yetişdirməklə aparmalıdırlar. Erkən nikahla mübarizə tədbirlərinə din xadimlərinin də verdiyi töhfələrdən bəhs edən Y.Əliyeva bildirib ki, məscidlərdə nikah haqqında şəhadətnamə sənədi təqdim edilmədən dini kəbin kəsilmir.

Şöbə müdiri çıxışının sonunda bildirib ki, tarix boyu müxtəlif çətinliklərlə, işğallar, soyqırımlar, müharibələrlə mübarizə aparmağı bacarmış Azərbaycan qadınlarının bu gün sadaladığımız problemləri yaşamaması üçün cəmiyyətdəki neqativ hallarla mübarizə tədbirlərini gücləndirməli, maarifləndirmə işinin yüksək səviyyədə təşkilini davam etdirməliyik.

“Qadın və təhsil” mövzusunda təqdimatla çıxış edən DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova bildirib ki, qadınların istər ailədə, istərsə də cəmiyyətdəki layiqli mövqeyi ilk növbədə həmin cəmiyyətin yüksək mənəvi keyfiyyətinin, o cümlədən inkişafının və xoşbəxt gələcəyinin göstəricisidir. Qadınların cəmiyyətin inkişaf prosesində tam iştirak etməsi üçün lazım olan bilik, bacarıq və özünə inamı gücləndirməyin ən əhəmiyyətli vasitələrindən biri təhsildir. Qadının təhsilli olması, öz huquqlarını bilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığı bir ailənin, cəmiyyətin sağlam gələcəyi deməkdir. Qızların təhsildən yayınması ilə bağlı statistikaya nəzər salan şöbə müdiri bu problemin yoxsulluq, erkən nikah və gender əsaslı şiddət kimi səbəblərdən qaynaqlandığını vurğulayıb. İslam dinində qadının təhsili barədə də danışan E.Kərimova ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan qadının cəmiyyətdə fəallığının artırılması üçün atılan mühüm addımlara diqqət çəkib. O, çıxışını “Bir qızın təhsili gələcəyinə qoyulan sərmayədir. Həm də dünyamızın gələcəyinə - inkişaf edən, dinc və davamlı bir dünyaya bir sərmayədir.” - fikri ilə yekunlaşdırıb.

Dövlət Komitəsinin əməkdaşı Aysel Abdullayeva isə XX əsrin əvvəllərində təhsilin, maarifçiliyin yayılması üçün çətin, kaşməkeşli yol keçən maarifpərvər azərbaycanlı qadınlar barədə təqdimatını nümayiş etdirib.

Gənclər üçün Təhsil Mərkəzi Qarabağ Regional ofisinin rəhbəri Radə Telmanqızı erkən nikahın aradan qaldırılması üçün bir sıra təkliflər səsləndirib və bu sahədə koordinasiyalı şəkildə fəaliyyətin önəminə toxunub.

Videokonfrans müzakirələrlə işini yekunlaşdırıb.

# Nəriman Qasımoğlu: "İman ağıla söykənəndə möhkəmlənir, kamilləşir"

## Dinin siyasi alətə çevrilməsi insanlıq əleyhinə cinayətlərə gətirib çıxarır

Şərqşünas-alim Nəriman Qasımoğlunun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi.



***- Nəriman müəllim, istəyirəm, söhbətə Kərbəla hadisəsinin baş verməsindən başlayaq. Bu faciə niyə baş verdi?***

- Əslində, o zaman nə baş verdiyi tarix güzgüsündə çox aşkar görünür. Biz əvvəlcə Peyğəmbərin vəfatından sonra xilafət içində baş verən ziddiyyətlərə baxmalıyıq. Xəlifə Əlinin hakimiyyəti dövründə bu ziddiyyətlər çox kəskinləşmişdi. Bəzi vilayətlərdə onun qanuni hakimiyyətini tanımırdılar. Onlardan biri də Şam valisi Muaviyə idi. İxtilaflar dərinləşəndə Muaviyə tərəfdarları hakimiyyət içində Əliyə sadiq insanlar arasında da narazılıqlar yaratmağa nail oldular, sonra isə terror edərək onu qətlə yetirdilər. Muaviyə vəfat etdikdən sonra hakimiyyət oğlu Yezidə keçdi. Ancaq Yezidin də hakimiyyətinin legitimləşməsi problemi var idi axı. Söhbət ondan gedir ki, Peyğəmbərin ailəsindən kimsə onun hakimiyyətini tanımalı idi. Peyğəmbərin nəvəsi Həsənin vəfatından sonra çox çalışdılar ki, Hüseyn tanısın. Hüseyn isə Yezidin hakimiyyətini tanımaqdan imtina edir. Onu inandırmağa çalışırdılar ki, birlikdə Yezidi məğlub edə bilərik, hətta bunun üçün Kufəyə də dəvət etmişdilər. Hüseyn bu çağırışa cavab olaraq yola çıxır və Kərbəla çölündə mühasirəyə düşür. Ancaq ona məktublar yazan, onu dəstək sarıdan arxayın edən Kufə camaatından heç bir kömək gəlmir. On gün mühasirədə qalsalar da, Hüseynin iradəsini qıra bilmirlər. Hətta Fərat çayının qarşısını kəsmişdilər ki, Hüseynin tərəfdarlarını susuz qoysunlar. Hüseyn qərarını açıq şəkildə ifadə edir ki, hakimiyyəti tanımayacaq. Həlak olacağını bilə-bilə döyüşə atılır və şəhadətə qovuşur. Baş verənlər bundan ibarətdir. Bu, tarixi hadisədir. İndi dünya müsəlmanlarının bir qismi 14 əsrdir ki, bu hadisənin yasını saxlayırlar. Bunun özündə də tarixi çalarlar var. Bir müsəlmanın tarixi hadisəyə görə yas tutmaq borcu varmı – bu başqa məsələdir.

***- Sizcə, Kərbəla hadisəsi yaşanmaya bilərdimi? Ümumiyyətlə, bu faciə müsəlman dünyasına və bütövlükdə bəşəriyyətə nə qazandırdı? İmam Hüseynin məğlubiyyəti ilə nəticələnsə belə, bu hadisə, əslində, qələbə deyildimi?***

- Bilirsiniz, Həzrət Hüseynin Yezidin hakimiyyətini tanımayacağı ilə bağlı qərarı, bu qərardan dönməzliyi və bu yolda şəhadətə qovuşması zalıma qarşı mübarizə nümunəsidir. Amma yenə deyirəm, bu, tarixi hadisədir, dini hadisə deyil. Əlbəttə, bunu dinlə bağlayanlar da var. Tayfalar arasında gedən bu mübarizədə kimin haqlı olması gün kimi aydındır. Haqq tərəf Hüseyn idi, haqq tərəf Əli idi. Buna başqa cür təfsir vermək, ümumiyyətlə, mümkün deyil. Ancaq bunlardan nəticə çıxarmalı olan müsəlmanlar 14 əsr yas tutmalıdırlar, matəm saxlamalıdırlar? Söhbət bundan gedir. Tarixdə belə hadisələr çox olub. Amma yas ovqatı, matəm ovqatı... Ümumiyyətlə, İslam yas dini deyil, matəm dini deyil. Məsələn, Quranda ayə var ki, ibadət zamanı zinətlənin, bayram ovqatında olun. İbadət sevinc, xoşbəxtlik gətirməlidir. Yas ovqatında ibadət halı ola bilməz. Əlbəttə, başqa cür düşünənlər var, bu da onların düşüncəsidir, hər kəsin etiqad azadlığı var. Şəxsən mən Quran ayələrinin işığında gəldiyim qənaətlərə əsaslanaraq yas ovqatını qəbul etmirəm.

Qəhrəmana yas tutmaq yox, qəhrəmanı öymək, nümunə kimi təqdim etmək, onun şücaətini öyrənmək və qeyd etmək olar. Türkiyədəki sünni məscidlərinin divarlarında Həsən və Hüseynin adlarının yazıldığını görmüşəm. Yəni bir hörmət var. Bu da tarixi ədalətdən irəli gələn hörmətdir. Tarixi ədalət və tarixi ədalətsizlik – elə adlarından da göründüyü kimi, tarixidir, dini ola bilməz. Çünki dini olan əbədidir, tarixdən ucadır. İslam dini 1400 ilin dini deyil. Bunu birmənalı şəkildə iddia etmək və onun Məhəmməd peyğəmbərdən başlamadığını demək olar. İslam Həzrət Adəmdən üzü bəri gəlir. Bilirsiniz ki, "İslam" – təslim olmaq deməkdir. Onu hər hansı zaman qəlibində saxlamaq olmaz. Bu zamansızlıq ucalığından baxanda tarixdə baş vermiş hadisələr elə tarixi hadisələr kimi görünür. Tarixi hadisələr bizə ibrət verə bilər.

***- Bəs niyə müsəlman cəmiyyətlərində bu kimi hadisələrə sizin dediyiniz əqli prizmadan deyil, daha çox emosional aspektdən yanaşılır?***

- Quranın da çağırışı odur ki, "bir düşünün", "düşünməzmisiniz?". Ağlın süzgəcindən keçirilməyən iman çox sürüşkən, bir günün içərisində darmadağın ola bilər. İman ağıla söykənəndə möhkəmlənir, kamilləşir. Quranda ayə var ki, dörd ay qüdsaldır, toxunulmazdır, haramdır. Məhərrəm ayı da onlardan biridir. Doğrudur, ayədə ayların adları çəkilmir. Ancaq Məhərrəm ayının bu ayların içərisində olması heç şübhə doğurmur. Elə adına görə - "muharram", yəni "qüdsal tutulan". Ayədə deyilir ki, bu aylarda məbada özünüzə zülm edəsiniz. Deməli, müsəlmanlar ayələrin təlqinindən uzaqdırlar. Əks halda, Məhərrəm ayını matəm ayı kimi yox, İslam aləmində yeni ilin gəlişi kimi qarşılayar, ayın 10-nu isə qəhrəmanlıq günü kimi qeyd edə bilərdilər. Bunu adət halına çevirmək lazımdır. Yoxsa ki özünü döyməklə, baş yarmaqla...

İndi mən bilən, Azərbaycanda bu "adət" yavaş-yavaş aradan qalxır. Başqa ölkələrdə isə qalmaqdadır. Bu da aradan qalxmalıdır, insan gərək özünə zülm etməsin. Ümumiyyətlə, başqa dinlərdə də belə şeylər var. Xristianlıqda Tanrıya qulluq etməyi İsa Məsihin timsalında əzab çəkmək kimi qəbul edən qol vardır. Ancaq Quran başqa şeyi - axirətlə dünya həyatı arasında tarazlığı - təlqin edir axı. Quranda dua var: "İlahi, sən mənə bu dünyada da, axirətdə də yaxşılıqlar, gözəlliklər qismət et". Bu mənada özünə əzab vermək yanlış düşüncədir, təhrifli dini düşüncədir. Əslində, insanları da günahlandırmaq olmur, bunlar tarixdən, ata-babalardan gələn adətlərdir.

***- Ancaq Quranda ayə də var ki, yanlış yolda olan ata-babalarınız kimi olmayın...***

- Bəli. Deyirlər, "ata-babalarımızın dinində idik" və Quran cavab verir ki, "əgər ata-babalarınız doğru yolda deyildilərsə, onda necə?". Baxın, İbrahim peyğəmbərin atası bütpərəst idi, amma özünə peyğəmbərlik verilmişdi. Yəni din nəsildən-nəslə verilmir. Din, ümumiyyətlə, irsi deyil. Çox vaxt irsi olaraq qəbul edirik: mənim atam müsəlmandırsa, mən də müsəlmanam, yaxud valideynlərim xristiandırsa, mən də xristianam və s. Mən yenə də bu məsələdə sıravi dindarları günahlandırmıram. Çünki belə təlqin edilib.

***- Nəriman müəllim, dinin siyasiləşdirilməsi, şübhəsiz, bu günün söhbəti deyil, əsrlər boyu belə olub və Kərbəla hadisəsi, Aşura mərasimi kimi tarixdə çox mühüm bir hadisə də, təəssüf ki, öz məqsədlərinə nail olmaq istəyən qruplar tərəfindən alətə çevrilir. Buna münasibətiniz necədir?***

- Tarixin bütün dövrlərində dindən siyasi məqsədlər üçün istifadə olunmasının fəsadlarını görmək olar. Din siyasi alətə çevriləndə çox böyük fəsadlar baş verir. Onun sabitliyə, istiqrara, hakimiyyətlərə təhdidlərini qoyuram bir kənara. İnsanlıq əleyhinə cinayətlərə gətirib çıxarır. Dindən siyasi alət kimi istifadə olunan yerdə mütləq fitnə var, qeyri-sağlam məqsədlər var. Bu barədə mənim bir məqaləm də var: "Siyasiləşən, siyasətləşdirilən din". Orada çalışmışam ki, dinin siyasi alətə hansı səbəblərdən çevrilməməsinin zəruriliyini arqumentlərlə əsaslandırım. Dinin siyasiləşdirilməsinə heç vaxt yol verməmək olmaz. Azərbaycanda bunun zəmini yoxdur. Söhbət ənənə baxımından zəmindən gedir. Olan nə varsa, Azərbaycandan qaynaqlanmır, mütləq xariclə əlaqəsi var. Azərbaycanda hər zaman fərqli dindarlıq modeli olub və bu model siyasət qaynaqlı olmayıb. Bir də Azərbaycanda tarix boyu fərqli dinlər mövcud olub və bu dinlərin nümayəndələri birlikdə mehriban şəraitdə yaşayıblar. Nizamidən üzü bəri ədiblərimizin əsərlərində dini tolerantlıq təbliğ edilir. Genində belə tolerantlıq olan xalq dini siyasiləşdirə bilməz, əslində. Çünki mentalitetində yoxdur. Kimlərsə edirsə, bu artıq başqa "dalğadır", xaricdən qaynaqlanır. Cəmiyyətimizin özü belə şeylərə qarşı müqavimətlidir. Müqaviməti zəif olan hissəsini yoldan çıxarmalarının qarşısını almaq lazımdır. Xarici dairələr zaman-zaman çox istədilər ki, ölkəmizdə də dini siyasiləşdirsinlər və bundan təzyiq vasitəsi kimi bizə qarşı istifadə etsinlər. Çox şükür ki, bugünədək buna müyəssər olmayıblar. Dediyim kimi, bunda xalqımızın tarix boyu qazandığı tolerant düşüncə tərzi böyük rol oynayıb və bu gün həmin düşüncə dövlət siyasəti ilə qorunub saxlanılır ki, bu da çox önəmli faktordur.

***- Ancaq tamamilə daxili immunitetə arxalanmaq və sayıqlığı əldən vermək də olmaz, albəttə...***

- Qətiyyən! Ötən əsrin əvvəllərində ədiblərimiz qollarını çırmayıb belə şeylərə qarşı, mövhumata, xurafata qarşı kəskin mübarizə aparırdılar. Çox böyük xidmətləri oldu. Onu da deyim ki, sözləri eşidilirdi. Eşidilməsə, nadan qruplar tərəfindən təqib edilməzdilər. Arxiv materiallarında rast gəldiyim bir məlumatı deyim. XIX əsrin sonlarında Quba uyezdinin naçalniki Bakı qubernatoruna teleqram vurur ki, burada yerli şiə və sünni camaat öz aralarında bir dərnək qurublar, dini söhbətlər edir, ortaq nöqtələr axtarır, dini baxımdan yaxınlaşmaq istəyirlər. Qubernator isə cavab teleqramında yazır ki, o işlə məşğul olanları dərhal nəzarətə götürsünlər. Məqsəd "parçala, hökm et" idi axı. Biz bilmirik bunu edən gənclər kimlər imiş, amma öz aralarında belə bir razılığa gəliblərsə, ortaya azərbaycanlılara tarixən xas olan bir nümunə qoyublar. Bu faktın özü də göstərir ki, təkcə ziyalılar deyil, sadə camaat da birgəyaşayışın tərəfdarı olub və bunun üçün işlər görüb.

***- Bilirəm ki, aktiv sosial şəbəkə istifadəçisiniz və yaqin bugünlərdə "Facebook"-da sizin də qarşınıza "Bir ərəbin ölümünə niyə 1300 il yas tutulur?" şəklində polemika çıxmışdı. Hətta Vətən Müharibəsində şəhid olan qəhrəman oğullarımızı da bu məsələyə qatmışdılar...***

- Bu cür müzakirələr açmaq aşağı səviyyəli mədəniyyətin göstəricisidir. Kimsə yas tutursa, qoy tutsun. Əgər onun düşüncəsi budursa, başqa məqsədlər güdmürsə, niyə onu sancmalıyam? Mən onu maarifləndirə bilərəm. Quran nümunəsi var qarşımızda. Musa peyğəmbər fironla görüşməyə gedəndə vəhy gəlir ki, firona çox mülayim sözlər de. Bilirsiniz ki, firon zalım, Quranda küfrün simvolu kimi təqdim edilir. Bununla belə, deyilmir ki, onun üzünə zalımlıqlarını de. Əksinə, deyilir ki, öz əqidəni ona çatdırırsansa, elə yumşaq sözlər söyləməlisən ki, əks reaksiya doğurmasın. Çünki başqa formada sən sözünü qarşı tərəfə çatdıra bilməzsən, belədə insan beyni sadə həqiqətlərin müzakirəsinə belə, qapanmış duruma düşür. Yaxud da deyilir ki, kitab əhlindən olanlarla söhbət edəndə gözəl ifadələr seç, de ki, sizin də Rəbbiniz birdir, bizim də, biz Ona təslim olanlarıq. Budur Quranın təlqin etdiyi dialoq aparmaq, fikrini çatdırmaq taktikası. Həmin kobud sözləri yazanlar, şəhidləri spekulyasiya alətinə çevirənlər bundan bixəbər şəxslərdir. Yəni yanlış hesab etdiyin məsələyə münasibət bildirəndə də gərək sözünü yumşaq ifadə edəsən, ifadələrin qıcıq doğurmasın. Quran ayələri, tarix işığında normal diskussiyalar aparmaq olar. Cəmiyyət bu yolla maarifləndəndə İslamın siyasiləşməsi perspektivi də sıfıra enər. İmam Hüseyn nümunədirsə, onun milliyyətinin məsələyə nə aidiyyəti ola bilər? Quran deyir, biz sizi xalqlara və qəbilələrə ayırdıq ki, bir-birinizlə yaxından tanış olasınız, yəni cəmiyyət olaraq zənginləşəsiniz. Mədəniyyət müxtəlifliyi, əslində, mənəvi zənginliyə aparan vasitələrdən biridir. O xalqlarda ki bu dəyərə hörmət var, onlar inkişaf edirlər. O dövlətlərdə ki faşizm ideologiyası hökm sürür, monoetnikdir, onların sonu yaxşı olmur. Bunu Ermənistanın timsalında da görmək mümkündür.

# Mirhəmid Məmmədov: Kərbəla faciəsi öyrənilməsi vacib olan məktəbdir

## Pandemiya göstərdi ki, təkcə özünü düşünməklə bu dünyada yaşamaq mümkün deyil

Bakıxanov qəsəbəsi "İmam Rza" məscidinin imamı Hacı Mirhəmid Məmmədovun "Cəmiyyət və Din" qəzetinə müsahibəsi.

***- Məhərrəm ayı müsəlman dünyasında Məhəmməd peyğəmbərin nəvəsi imam Hüseyn, onun ailə üzvləri və tərəfdarlarının Kərbəla çölündə qətlə yetirilməsi ilə xatırlanır. Kərbəla hadisəsi İslam dünyasında ümumilikdə böyük faciə kimi qəbul olunsa da, onun mahiyyəti ilə bağlı yanaşmalar birmənalı deyil. Sizcə, İmam Hüseynin şəhadəti ilə nəticələnən bu hadisənin əsl mahiyyəti nədən ibarətdir?***

- Aşuranın, Kərbəla hadisəsinin mahiyyəti insanların azadlığı uğrunda mübarizə, zülmə baş əyməməkdir. Aşura hədəfə çatmaq üçün birgə mübarizədir. Kərbəla çölündə baş verən döyüşdə müxtəlif xalqlardan olan insanlar iştirak edib, Kərbəla şəhidləri arasında qaradərili, türk və s. var. İstənilən halda, bu, birlikdən xəbər verir və bizə birgə yaşamağı, eyni amal uğrunda birgə mübarizəyə qalxmağı, zalımdan qorxmamağı və ölümümüzə, şəhidliyimizə rəğmən qələbə qazana biləcəyimizi göstərir. Və bu gün ölkəmizdə Kərbəla hadisəsinin qeyd edilməsi həm də onu göstərir ki, biz heç kimin qarşısında əyilmərik, sınmarıq, istənilən düşmənin qarşısında qəhrəmanlıq nümunəsi göstərərik. Hər zaman torpağımız, vətənimiz və etiqadımız uğrunda canımızı fəda etməyə hazırıq. Kərbəla hadisəsinin insanlara təlqin etdiyi budur. Ona görə də Aşura, eləcə də Kərbəla faciəsi ayrı-ayrı xalqlar üçün öyrənilməsi vacib olan məktəbdir. Nə xoş bizə ki, bizim də xalqımız yüz illərdir bu yola hörmətlə yanaşır, peyğəmbər ailəsinə, İmam Hüseynə öz məhəbbətini və sevgisini göstərir. Eyni zamanda o dəyərləri yaşadır. Çalışır ki, o dəyərlər unudulmasın. Kərbəla hadisəsi zalımla məzlumun fərqini göstərir. Bizim xalqımız isə hər zaman məzlumun yanında olub. Mən düşünürəm ki, məzlumun yanında olmaq özü belə bizim milli dəyərimizdir. Kərbəla hadisəsində də xalqımız məzlumun tərəfini saxlayır.

***- Kərbəla hadisəsinin qeyd olunma tərzi, sosial-psixoloji təsirləri və s. bu kimi məsələlərlə bağlı xüsusilə internet resurslarında zaman-zaman müzakirələrin, bəzi hallarda isə mübahisələrin şahidi oluruq. Bu polemikalar təkcə dindarlar arasında deyil, sosial şəbəkələrdə, mediada müxtəlif dünyagörüşlü insanlar arasında baş verir. Sizcə, bəzən mübahisə səviyyəsinə çatan belə müzakirələrin müsbət və mənfi tərəfləri nələrdir?***

- Bəzi məsələlər var ki, onun ətrafında yersiz mübahisə etmək yolverilməzdir. Təbii ki, qanun və etika çərçivəsində nəyəsə etiraz etmək və ya nəyisə tənqid etmək olar. Biz hüquqi dövlətdə yaşayırıq. Burada hər kəs qanun qarşısında bərabərdir. Dini etiqad azadlığı var. Yəni inanclıya və ya inancsıza, müsəlmana, ya da qeyri-müsəlmana hüquqi olaraq heç bir fərq qoyulmur.

Əksəriyyətimiz sosial şəbəkələrdən aktiv istifadə edirik. Müşahidə edirəm ki, bəzi elm və mədəniyyətdən uzaq insanlar mübahisə yaradıb bir-birinə qarşı inancla bağlı qəbuledilməz fikirlər səsləndirirlər. Görürsən ki, yerli-yersiz kiməsə irad bildirirlər, hətta bunu da böyük ixtilaf həddinə çatdırırlar. Əlbəttə, belə insanların sayı çox azdır, yəni biz deyə bilmərik ki, bu kütləvidir. Çünki belə işləri görənlər, dediyim kimi, zəif əqidəli insanlardır. Bu hal başqalarının etiqadına dözümsüzlüyün göstəricisidir.

Mənim inancıma görə, insan, ən azı, başqasının etiqadına hörmətlə yanaşmalıdır. Əslində, hər kəs öz etiqadını düzgün hesab edir. Lakin kimsə başqasının etiqadına qarşı hörmətsizlik edəndə bilsin ki, onun da etiqadına qarşı hörmətsizlik ola bilər. Ona görə mənim şüarım bu olub ki, qarşı tərəfin inacına hörmətlə yanaşaq və hər kəs öz etiqadında azaddır. Heç kəs məcburi hansısa dinə, hansısa inanca sahib ola bilməz, bu mümkün deyil. İnsanlar azad yaşamalıdır. Öz ağlı, şüuru, təfəkkürü ilə istədiyi yolu seçib o yolla davam edə bilər. Bu həmçinin mənəvi işdir və qəlblə bağlı olan bir məsələdir.

Əlbəttə, ifrat və təfrit hər zaman olub. Bu gün də bəzi insanlar hər sahədə olduğu kimi, dini məsələlərdə də ifrata varırlar. Bu da özlüyündə mübahisələrə gətirib çıxarır. Bu şüarı yenə təkrar edirəm: insan digər inanclara hörmətlə yanaşmalıdır. Lakin dini vəya əqidəni gözdən sala biləcək, dinə zərərli ifrat əməllərə də yol verilir ki, bu da qəbuledilməzdir. Əgər inancda ifrat əməl yoxdursa və başqasına qarşı qalxmırsa, ona heç cür bir söz demək olmaz. Məsələn, bir qrup insan Peyğəmbərin (s) nəvəsinin matəminə şərik olur, insanlıq uğrunda mübarizədə, azadlıq uğrunda mübarizədə şəhid olan Hüseyn ibn Əlinin matəmini keçirir, kədərlənir. Bu kimi naharat edər ki?! Və yaxud kimsə Peğəmbərin sülaləsini sevmirsə və matəm saxlamırsa, bu məni niyə narahat etməlidir ki? Özü bilər. Hər adamın seçimi öz əlindədir, hər adamın qəlbini Allah bilir və hər adam öz əməllərinə görə özü cavab verəcək. Ona görə də bu məsələdə dözümlülük və insanların bir-birinə hörmətlə yanaşması əsas şərtdir. Bu gün Qərbdə bir nəfər digərindən Xristianlığın hansı qoluna mənsub olduğunu heç soruşmur. Qərbdə hətta bir-biri ilə ixtilaf da olmur ki, niyə sən Xristianlığın bu və ya digər qoluna inanırsan? Dediyim kimi, bu məslədə mübahisə elm və mədəniyyətin, dünyagörüşünün zəifliyindən irəli gəlir. Savadlı təbəqədə belə şeyin olmasına mən inanmıram. Biz bir-birimizə insan olduğumuz üçün, eyni xalqdan, eyni millətdən, hətta müsəlman olduğumuz üçün hörmətlə yanaşmalıyıq.

Son günlərdə mübahisə doğuran fikirlərdən biri də Məhərrəm ayında toy mərasiminin keçirilməsinin düzgün olub-olmaması ilə bağlıdır. Bir adam İmam Hüseynə hörmətə görə toy etmirsə, niyə deyirsən ki, toy et?! Özü bilər, seçim özünündür. Və yaxud kimsə Peyğəmbərin nəvəsinin yas günü toy edirsə, digərinin "yox, etmə!" deməsi düzgün sayılmır. Çünki bu qəlbdən gələn məhəbbət nümunəsidir. Mənim yadıma gəlir ki, kəndimizdə, rayonumuzda, qonşu vəfat edəndə heç kəs, xüsusən də qonşular televizoru açmırdılar ki, birdən səsi gələr. Bu, insanlarda sevgidən, məhəbbətdən, bir mənəviyyatdan asılı olan məsələdir. Burda zor göstərmək, hər hansı qanun qoymaq məsələsi yoxdur.

Digər məsələ isə Kərbəla faciəsinin ərəblərlə bağlı olduğu və bizə heç bir aidiyyətinin olmaması ilə bağlı fikirlərin yayılmasıdır. Əziz qardaş və bacılar, bu gün xristian dünyasında Həzrət İsanın hansı millətdən olması mövzu deyil. Yəni bir xristian üçün bu maraq kəsb etmir. Belə yanaşma da mənəvi baxımdan yolverilməzdir.

Biz tarixən başqa millətlərlə, başqa dinlərin və əqidələrin nümayəndələri ilə birgə, dostcasına yaşamışıq. Müsəlman qeyri-müsəlmanla mehriban qonşu olub, qardaşlıq olub. Həmişə Aşuranı keçirənlərlə onu qeyd etməyənlər bir-birinə hörmətlə yanaşıb. Bu birliyi, bu vəhdəti istəməyən xarici qüvvələr var ki, xüsusi proqramlar çərçivəsində bölücülük aparmağa cəhd göstərirlər. Lakin bu planlar baş tutmayacaq. Azərbaycan xalqı və burada yaşayan müsəlmanlar həmişə mehriban yaşayıblar və yaşayacaqlar.

***- Azərbaycan multikultural ölkədir. 44 günlük Vətən müharibəsində dini, etnik mənsubiyyətindən, siyasi düşüncəsindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları bir yumruq kimi Ali Baş Komandanın ətrafında birləşdi və erməni təcavüzkarları üzərində böyük qələbə qazanıldı. Gələcəkdə də daha çox birləşdirici faktorlara əsaslanaraq milli birliyimizi möhkəmləndirmək, təfriqə yaradan məqamlardan uzaq durmaqla bağlı hansı işlər görülməlidir? Bu məsələdə ümumilikdə cəmiyyətin, o cümlədən dindarların üzərinə hansı hüquqi və mənəvi öhdəliklər düşür?***

- Etnik mənşəyindən, dilindən, dinindən eləcə də dini məzhəbindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər kəs hər zaman birgə olub. Əlbəttə, istər daxildə, istərsə də xaricdə bizim bu birliyimizi istəməyən



qüvvələr həmişə olub, indi də var. Ancaq xalqımız o cür xoşagəlməz halların, birliyimizə və bötüvlüyümüzə qarşı hazırlanmış təxribatların öhdəsindən gəlməyi bacarıb, birlik göstərərək onlara lazımi cavabı verib. Bu birlik bizim xalqın inkişafında çox böyük rol oynayıb. Azərbaycanda mütləq əksəriyyət bir-birinin istər etnik adət-ənənəsinə, istər dini rituallarına hörmətlə yanaşıb. Biri digərinin matəm hesab etdiyi günlərdə, eləcə də bayramlarında və əziz günlərində iştirak edib. Təbii ki, özünü bu münasibətdən kənarda saxlayan, bu birliyə kölgə salmaq istəyən ayrı-ayrı cılız insanlar olub. Ancaq onlar heç vaxt özlərinə dəstəkçi tapa bilməyiblər. Azərbaycan xalqı bu birliyi və tolerantlığı ilə dünya ölkələrinə bir nümunədir. Ona görə də bizim milli dəyərlərimizdən biri xalqların, dinlərin bir-birilə xoş münasibətidir. Buna bariz misal kimi 44 günlük Vətən müharibəsini göstərə bilərik. Müharibədə yaşadığı bölgədən, etnik və dini mənsubiyyətindən, məzhəbindən asılı olmayaraq, hər kəs yumruq kimi birləşdi. Hətta müsəlmanlarla birlikdə qeyri-müsəlmanlar da o döyüşlərdə iştirak etdilər. Bu, xalqımızın vətənə məhəbbətindən, torpaq sevgisindən, yaşadığı əraziyə bağlılığından irəli gəlir. Ona görə də, 3 minə yaxın vətəndaşımız bu yolda canlarını fəda edib torpaqlarımızı düşmən tapdağından azad etdi. Əlbəttə, xalqımızın birliyi nəticəsində əldə edilən bu parlaq qələbəni ölkəmizdə yaşayan hansısa bir xalq və ya hansa bir din, yaxud da dini məzhəb təkcə özünə aid edə bilməz, öz adına yazıb "bunu biz elədik" deyə bilməz. Bu müqəddəs savaş bir daha göstərdi ki, Azərbaycanda yaşayan hər kəs bu amal uğrunda canından keçməyə hazırdır. Qələbə bütövlükdə Azərbaycan vətəndaşının qələbəsidir. Bundan sonra da ölkəmizə qarşı hər hansı düşmən təxribatı olarsa, biz yenə də birlik nümayiş etdirərək onları yerində oturdarıq. Bizim birliyimiz və bərabərliyimiz bizim üçün başucalığıdır.

***- Pandemiya şəraitində insanların sağlamlığının qorunması məqsədilə bütün dünyada olduğu kimi, ölkəmizdə də sosial məsafənin gözlənilməsi çətin olan kütləvi tədbirlərin keçirilməsində bir sıra məhdudiyyətlər tətbiq olunur. Belə şəraitdə sağlamlığın qorunması üçün dini qaynaqlar nə tövsiyə edir, dində insan sağlamlığının önəmi nədir?***

- Əvvəllər bu xəstəliklə bağlı şübhəli məqamların mövcud olmasına baxmayaraq, artıq insanlar onun ciddiliyini dərk edirlər. Elə bir ailə yoxdur ki, bu xəstəliklə bağlı problem yaşamasın. Pandemiya ilə bağlı bir çox ailə problemlərlə üzləşib, zərər görüb. Allahdan istəyim bu xəstəliyin tezliklə dünya üzərindən çəkilməsidir. Müqəddəs bir hədisdə də buyurulur ki, onun azlığını çox hesab edin, çünki az olan bir zaman çoxala, genişlənə bilər. Misal üçün, insan yüngül xəstəliyin üstünə vaxtında düşməsə, xəstəlik bütün vücuduna yayıla, zərər verə bilər. Ciddi məsələlərdən biri də odur ki, siz öz sağlamlığınızı qorumasanız, xəstəlik bütün kəndə, qəsəbəyə, şəhərə və ya bütün dünyaya yayıla bilər.

davamı səh. 10

# Mirhəmid Məmmədov: Kərbəla faciəsi öyrənilməsi vacib olan məktəbdir

## Pandemiya göstərdi ki, təkcə özünü düşünməklə bu dünyada yaşamaq mümkün deyil

əvvəli səh. 9

Hazırda xəstəliyin bütün dünyaya yayılmasını, bir növ, sadaladığımız məsələlərlə də bağlamaq olar. Bu gün dünya alimləri bəşəriyyətin bu bəladan xilas olması üçün çalışırlar.

Dinimizdə ən önəmli məsələlərdən biri insan sağlamlığıdır. Əgər insan sağlam olmasa, dini ayinlərin heç birini yerinə yetirə bilməz. Qurana və sünnəyə istinad etsək, insan sağlamlığının necə mühüm olduğunu görərik. Ramazan ayında oruc tutmaq nə qədər vacib olsa da, əgər oruc tutmaq orqanizmə zərər vurursa, qadağan edilir. Bundan başqa, sağlamlığı imkan verməyən şəxslərə İslam dininin vacib şərtlərindən biri olan Həcc ziyarətinə getmək də vacib buyurulmur. Və yaxud su ilə dəstəmaz almaq sənə zərərlidirsə, torpaqla təyəmmüm edirsən. Bütün bunlar onu sübut edir ki, dinimiz insanların sağlamlığına ən önəmli məsələlərdən biri kimi baxır. Peyğəmbərimizdən, məsumlardan və səhabələrdən də hədislər var ki, təhlükədən qorunmaq həm şəri, həm də əqli məsələdir. Ona görə də bu bəladan həm özümüzü, həm ətrafdakılarımızı qorumalıyıq. Çünki özümüzü və yaxud başqalarını bu xəstəliklə təhdid etmək günahdır. Əgər bir insan xəstə olarsa və ictimai yerlərə gedib başqalarını yoluxdurursa, bu çox böyük günah sayılır. Cəmiyyət arasında xəstə halda gəzmək başqalarını yoluxdurmaq çox böyük bir cinayətdir. Çünki xəstə insanın yaydığı virus kiminsə həyatına son qoya bilər. Bu məsələlər ibadət edərkən, məscidə gedərkən də nəzərə alınmalı, qaydalara əməl edilməlidir. Bu qaydalara əməl edib tezliklə xalq olaraq, millət olaraq və ən nəhayət, bəşəriyyət olaraq bu bəladan tez bir zamanda xilas olmalıyıq. Sədi Sirazinin də bir kəlamında deyildiyi kimi, Adəm övladları bir bədənin üzvüdür. Bir orqanda problem baş verəndə başqa orqanlara da təsir edir. Bu bəla dünyaya, bəşəriyyətə göstərdi ki, bir insan problem yaşayırsa, o, bütün dünyaya təsir edir, problem yaradır. Bu xəstəlik bəşəriyyətdən uzaqlaşdırılmalıdır ki, insanlar rahat yaşaya bilsinlər. Hər bir insan öz sağlamlığını qoruduğu kimi, başqalarını da düşünməlidir ki, tez bir zamanda bu bəladan qurtulaq. Təkcə özünü düşünməklə bu dünyada yaşamağın mümkün olmadığını öz gözlərimizlə gördük.

Bütün bu sadaladıqlarımda əsas məqsəd odur ki, pandemiya ilə bağlı qaydalara riayət etməli, bunu tək evdə, yaxud şəxsi gigiyenaya diqqət etməklə məhdudlaşdırmamalı, getdiyimiz yerlərdə, ziyarətgahlarda da əməl etməli və bəşəriyyət bu bəladan qurtulmalıdır.

***- Son vaxtlar ölkəmizdə narkomaniyaya qarşı mübarizənin gücləndirilməsinin vacibliyi barədə tez-tez danışılır. Bu bəla ilə mübarizədə maarifləndirmənin rolu vurğulanır. Din xadimləri, dindarlar müxtəlif platformalarda onlayn çıxışlar edir və xüsusən gənclər tərəfindən izlənilirlər. Bu imkanlardan istifadə edərək gənclər arasında narkomaniyanın yayılmasının qarşısının alınmasına hansı töhfələr verilə bilər? Dini-mənəvi potensialımızla əməli iş arasında nisbət sizi qane edirmi?***

- Dini baxımdan insan əqlinə, şüuruna, iradəsinə təsir edən hər hansı bir maddə haram sayılır. İnsanın onu istifadə etməsi qadağandır və onun sağlamlığına, insanlıqdan çıxmasına təkan verirsə, bu məsələ, ümumiyyətlə, qəbuledilməzdir. Narkomaniya ilə mübarizə aparmaq hər bir müsəlmana vacibdir və insanlar çalışmalıdırlar ki, narkotik maddələrin satılmasının, yayılmasının qarşısını alsınlar. Bu problem dini məsələ deyil, ümummilli, ümumbəşəri məsələdir. Biz cəmiyyətdə yaşayırıq və bu problem bütün bəşəriyyətə təsir edir, başqa-başqa fərdlərə deyil. Ona görə də hər bir insan öz imkanları çərçivəsində bu işlə mübarizə aparmalıdır.

Dinimiz də narkotik maddələrdən istifadənin insanlığa böyük zərər vurduğunu deyir. Mən belə düşünürəm ki, narkomaniyaya qarşı, ilk növbədə, maarifləndirmə yolu ilə mübarizə aparılmalıdır. İnsanlara bunun zərərini izah etməklə, gənclərə narkotik maddələrin zərərini göstərməklə bu zərərli vərdişdən çəkindirmək üçün böyük addım atmış olarıq. Əgər qonşuluqdakı bir gəncin bu maddələrdən istifadəsinə göz yumsaq, bir müddət sonra bizim ailəmizə, doğmalarımıza zərər vura bilər. Narkomaniya dünya səhnəsindən çıxarılmalıdır ki, bəşəriyyət bu bəladan qurtulsun. O, elə bir bəladır ki, gəncləri elmdən, mədəniyyətdən, inkişafdan saxlayır, narkoman ailə qura bilmir, qursa belə, öz ailəsini nə maddi, nə mənəvi yaşada bilir və belə ailələr tez bir zamanda dağılır. Narkomaniyaya qurşanmış gənclər təhsil ala bilmir, alsa da, öz sahəsində fəaliyyət göstərə bilmir, öz övladına atalıq edə bilmir və müsəlman ola bilmir. Narkoman gənc cəmiyyətə, dövlətə faydası olmayan fərdə çevrilir. Narkotik maddə istifadə edənlər insanlıqdan çıxır və tam olaraq iradəsiz fərdə çevrilirlər. Ona görə də bu bəlanın yayılması bir ailəni, bir xalqı məhv edə bilər. Bu bəla ilə mübarizə hər bir kəsin borcudur. Din xadimləri də öz moizələrində bu məsələlərə xüsusi önəm verməlidir və bilməliyik ki, dini baxımdan belə zərərli vərdişlər haramdır. Onu da bilməliyik ki, bu maddələrdən təkcə istifadə yox, həm də belə məsələlərə vasitəçilik etmək, onu satmaq haram, günah iş hesab olunur. Qiyamət günündə bu işlərlə məşğul olan hər kəs məsuliyyət daşıyacaq, necə ki, bu gün bütün dünya qanunlarında da belədir. Ona görə də buna şərait yaratmaq, göz yummaq, bunu yetişdirmək, satmaq, hər hansı formada vasitəçi olmaq günaha şərik olmağa bərabərdir. Anlamalıyıq ki, ölkəmizin çiçəklənməsi, gələcək nəslin savadlı və cəmiyyətə yararlı olması üçün narkomaniyaya qarşı mübarizəyə qalxmalı, birdəfəlik bunun kökünü kəsməliyik. Dünyaya özümüzü elmimizlə, mədəniyyətimizlə, ixtiralarımızla tanıtmalıyıq. Əks təqdirdə, bizim cavanlar hər bir məsələdə geri qalacaqlar. Bu səbəbdən dövlətimiz də, dinimiz də belə məsələlərə qadağa qoyur və biz din xadimləri də bu bəlanın əleyhinəyik.

# ÜMRƏ ZİYARƏTİ ÜÇÜN MÜRACİƏTLƏRİN QƏBULUNA BAŞLANILIB



Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi avqustun 9-dan etibarən Ümrə ziyarətinə gəlmək istəyən dindarların müraciətinin qəbuluna başlayıb. Rəsmi SPA agentliyinin saytında yerləşdirilən məlumatda qeyd edilib ki, zəvvarlar İslam ayinlərini icra edəcək, habelə Məkkədəki Böyük Məscid və Mədinədəki Peyğəmbər məscidində namaz qılacaqlar.

Məlumatda bildirilib ki, yerli və əcnəbi zəvvarların müraciətləri internetdə yerləşdirilmiş "Eatmarna" və "Tavakkalna" tətbiqləri vasitəsilə həyata keçiriləcək. Bu il hər biri 60 min zəvvar olmaqla 8 qrup qəbul ediləcək və Ümrə ziyarətinə gələnlərin ümumi sayı hər ay 2 milyon nəfərə çatacaq. Nazir müavini Əbdülfəttah bin Süleyman Məşat jurnalistlərə müsahibəsində deyib ki, zəvvarların təhlükəsizliyini təmin etmək məqsədilə ölkənin uyğun nazirlikləri ilə birgə tədbirlər planı hazırlanıb.

Ümrə ziyarətinə gələcək əcnəbilər mütləq qaydada COVID-19 əleyhinə vaksinasiya sertifikatı təqdim etməli olacaqlar. Bu vaksinlər Səudiyyə Ərəbistanı Səhiyyə Nazirliyinin təsdiq etdiyi siyahıda olmalıdır. Siyahıda olan vaksinlərlə bağlı ətraflı məlumat nazirliyin rəsmi saytında yerləşdirilib.

# ÖZBƏKİSTAN QAZAXISTANIN TÜRKÜSTAN ŞƏHƏRİNDƏ BÖYÜK MƏSCİD TİKİR

Özbəkistan hədiyyə kimi Qazaxıstanın Türküstan şəhərində 5 min yerlik böyük məscid kompleksi tikir. Burada İslam Mərkəzi, kitabxana və digər obyektlər də olacaq.

Məscid Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəstəyi ilə inşa edilir.

Nadir Şərq memarlığı üslubunda tikilən məscidin inşasında müasir materiallardan istifadə olunur. Məscid digər tikililərlə birlikdə 20 min kvadratmetr sahəni əhatə edəcək.

Kompleksin gələn il istifadəyə verilməsi nəzərdə tutulur.

# TÖVRAT İLK DƏFƏ MÜKƏMMƏL TƏRCÜMƏDƏ İŞIQ ÜZÜ GÖRÜB




Qədim yəhudilərin müqəddəs ilk beş yazı bükümünü – "Yaradılış", "Çıxış", "Levililər", "Saylar", "Qanunun təkrarı"nı özündə cəmləyən müqəddəs Tövrat kitabı ilk dəfə Azərbaycan dilinə mükəmməl tərcümədə işıq üzü görüb.

Qədim ibrani dilində "Qanun", "Təlim", "Öyüd" mənalarını daşıyan kitab Dövlət Tərcümə Mərkəzi ilə Bakı Dağ Yəhudiləri İcmasının birgə əməkdaşlığı əsasında ərsəyə gətirilib.

Kitabın tərcümə müəllifi – tanınmış yazıçı-tərcüməçi Etimad Başkeçid, redaktoru – Bəhlul Abbasovdur.

Kitab Dövlət Tərcümə Mərkəzinin mətbəəsində çap edilib.

# QRİP ƏLEYHİNƏ PEYVƏNDİN TƏRKİBİ YENİLƏNİB

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qripə qarşı peyvəndin tərkibini yeniləyib.

Təşkilatın yaydığı məlumata görə, keçən il dünyada qrip aktivliyi ötən illərlə müqayisədə aşağı göstəriciləri ilə qeydə alınıb və immun təbəqənin yaxşılaşmağı müşahidə olunmayıb.

ÜST qrip əleyhinə peyvəndin tərkibində yeni ştamları təqdim edib:

"A" qripinin iki variantı;

"B" qripinin bir variantı.

Həkimlərin ümumi fikri belədir ki, bu il virusun növünü proqnozlaşdırmaq çətindir, lakin yenilənmiş kompozisiya vətəndaşları indiki aktual qrip ştamlarından qorumağa kömək edir.

N.F.Gamaley Araşdırma Epidemiologiya və Mikrobiologiya Mərkəzinin laboratoriya müdiri Elena Burtseva koronavirus epidemiyasının qrip xəstəliklərinin sayının artdığı ölkələrdə meydana gəldiyini söyləyib. Ekspert bu ölkələrdə ən çox yayılmış variantın "A" qripi olduğunu bildirsə də, Çində "B" qripinin üstünlük təşkil etdiyini deyir.

Bununla bərabər, həkim peyvəndləmədən sonra immunitetin güclənməsi üçün vaxt lazım olduğu üçün qrip əleyhinə peyvəndə payızın əvvəllərində başlanmasını tövsiyə edib.

# İLAHİYYATÇI ALİMLƏR RƏQƏMSAL DÖVRDƏ FƏTVA MEXANİZMLƏRİNİ MÜZAKİRƏ EDİBLƏR



Misirin paytaxtı Qahirədə Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin təşkilatçılığı ilə "Fətva evləri rəqəmsal texnologiyalar dövründə: inkişaf problemləri və əməkdaşlıq mexanizmləri" mövzusunda beynəlxalq konfrans keçirilib. Beynəlxalq konfransda 85 ölkədən fətva evlərinin rəhbərləri, baş müftilər, nazirlər, ilahiyyatçı alimlər və ictimai xadimlər iştirak ediblər. Tədbirin iştirakçıları Misir Prezidenti Əbdülfəttah əl-Sisinin qəbulunda olublar.

Tədbirdə ölkəmizi Ümumdünya Fətva Evləri və Heyətləri Baş katibliyinin müşaviri, tədqiqatçı-alim Seymur Nəsirov təmsil edib.

Tədbirdə çıxış edən Misirin baş müftisi Şovki İbrahim Əbdülkərim Əllam, Misirin dini vəqflər naziri Məhəmməd Muxtar Cuma, müxtəlif ölkələrdən gəlmiş dini liderlər İslam aləmində həmrəylik, islamafobiya ilə mübarizə və sair məsələlərdən söz açıblar.

Beynəlxalq konfransın panel iclaslarında fətva institutunun rəqəmsal texnologiyalar əsasında qurulması, İslam dünyasında fətva evlərinin statusunun və ictimaiyyət arasında nüfuzunun artırılması kimi aktual məsələlər müzakirə edilib. Tədbir çərçivəsində "Misirin fətva elmləri müəllimi" ensiklopediyasının təqdimatı keçirilib.

Konfrans Bəyannaməsinin qəbul edilməsi ilə başa çatıb.

# PAKİSTAN ƏRƏB ÖLKƏLƏRİNİ İSLAM DÜNYASININ PROBLEMLƏRİNİN HƏLLİNDƏ DAHA FƏAL OLMAĞA ÇAĞIRIB



Ərəb Parlamentinin spikeri Adil bin Əbdülrəhman Əl-Əssuminin İslamabada səfəri zamanı keçirilən görüşlərdə Pakistan Prezidenti Arif Alvi və Baş nazir İmran Xan ərəb ölkələrini İslam dünyasının problemlərinin həllində daha fəal olmağa çağırıblar.

Prezident Arif Alvi günün ən aktual məsələləri sırasında İslam dini haqqında dünyada təhrif olunmuş fikirləri ifşa etməyi və müsəlmanların maraqlarının qorunmasını göstərib. Ərəb parlamentinin spikeri isə, öz növbəsində, Yaxın Şərqdə və Mərkəzi Asiyada sülhün, təhlükəsizliyin təmin olunmasında Pakistanın mühüm rolunu vurğulayıb.

Pakistanın Baş naziri İmran Xan qeyd edib ki, Ərəb Parlamenti Cəmmu-Kəşmir və Fələstin problemlərinin BMT Təhlükəsizlik Şurasının qətnamələri və İslam Əməkdaşlıq Təşkilatının qərarları əsasında həllinə səy göstərməlidir.

İslamofobiya ilə mübarizənin də birgə səylərlə aparılması zəruriliyini vurğulayan İmran Xan əlavə edib ki, hazırda rəsmi İslamabad bu istiqamətdə ərəb ölkələri ilə sıx əməkdaşlıq edir. O, həmçinin Pakistanın Yaxın Şərq və Körfəz regionunda sülhün və təhlükəsizliyin bərqərar olmasına töhfə verdiyini də söyləyib.

# KORONAVİRUSDAN MÜDAFİƏ ÜÇÜN SPREY HAZIRLANIB

Estoniyalı professor Martin Ustav koronavirusdan qorunmaq üçün burun spreyi yaratdıqlarını bildirib.

Burun üçün damcılar COVID-19-a qarşı antitellərin qarışığından ibarətdir. "İscosagen" şirkətində aparılan elmi-tədqiqat işlərinə professor Ustav rəhbərlik edib.

Alimin sözlərinə görə, dərman-damcılar hazırda bütün mövcud koronavirus növlərindən qorumaq gücündədir. Buna baxmayaraq, alimlər dərmanın daha təkmil olması üçün tədqiqatlarını davam etdirirlər.

"BioBlock" adlandırılan dərman üzərində "İcosagen"in alimləri ilə bərabər, "Chemi-Pharm" şirkətinin, habelə Tartu Universiteti və Estoniya Təbiət Elmləri Universitetinin mütəxəssisləri çalışıblar.

Dərmanın kütləvi istehsalına icazə verilib.

# ICESCO VƏ İSLAM İNKİŞAF BANKI ELM VƏ TƏHSİL SAHƏLƏRİNDƏ BİRGƏ LAYİHƏLƏR HƏYATA KEÇİRƏCƏKLƏR



İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd Əl Malik və İslam İnkişaf Bankının prezidenti Bəndər bin Məhəmməd Həccar müsəlman ölkələrində elm, təhsil və innovasiyaların inkişafı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar.

İmzalanmış sənəddə İslam ölkələrində elmin və təhsilin inkişafı, texnologiyaların son nailiyyətinin tətbiqi üzrə proqram və layihələrin həyata keçirilməsi nəzərdə tutulur. ICESCO-nun Baş direktoru virtual imzalama mərasimində bildirib ki, böyük maliyyə resurslarına malik olan İslam İnkişaf Bankı ilə sözügedən sahələrdə geniş əməkdaşlıq müsəlman aləmində elm və təhsil sahələrində əsl intibaha şərait yaradacaq. Bundan başqa, təşkilatın nümayəndələri üzv ölkələrin uyğun dövlət qurumları, elmi institutları və təhsil müəssisələri ilə konkret regional layihələrin hazırlanması istiqamətində birgə iş aparacaqlar. Xüsusilə Afrika və Asiyanın yoxsul ölkələrində təhsil prosesinin müasir standartlara uyğun təşkili, silahlı münaqişə bölgələrində məktəblərə dəstək verilməsi, qızların təhsilə daha çox cəlb olunması diqqət mərkəzində olacaq. Eyni zamanda, üzv ölkələrin tədris müəssisələrinin texnoloji bazasının gücləndirilməsi üzrə layihələr həyata keçiriləcək.

# QRİP ƏLEYHİNƏ PEYVƏNDİN TƏRKİBİ YENİLƏNİB



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qripə qarşı peyvəndin tərkibini yeniləyib.

Təşkilatın yaydığı məlumata görə, keçən il dünyada qrip aktivliyi ötən illərlə müqayisədə aşağı göstəriciləri ilə qeydə alınıb və immun təbəqənin yaxşılaşmağı müşahidə olunmayıb.

ÜST qrip əleyhinə peyvəndin tərkibində yeni ştamları təqdim edib:

"A" qripinin iki variantı;

"B" qripinin bir variantı.

Həkimlərin ümumi fikri belədir ki, bu il virusun növünü proqnozlaşdırmaq çətindir, lakin yenilənmiş kompozisiya vətəndaşları indiki aktual qrip ştamlarından qorumağa kömək edir.

N.F.Gamaley Araşdırma Epidemiologiya və Mikrobiologiya Mərkəzinin laboratoriya müdiri Elena Burtseva koronavirus epidemiyasının qrip xəstəliklərinin sayının artdığı ölkələrdə meydana gəldiyini söyləyib. Ekspert bu ölkələrdə ən çox yayılmış variantın "A" qripi olduğunu bildirsə də, Çində "B" qripinin üstünlük təşkil etdiyini deyir.

Bununla bərabər, həkim peyvəndləmədən sonra immunitetin güclənməsi üçün vaxt lazım olduğu üçün qrip əleyhinə peyvəndə payızın əvvəllərində başlanmasını tövsiyə edib.

# *ALMANİYADA UNİVERSİTET NƏZDİNDƏ İLK SİNAQOQUN AÇILIŞI OLUB*



Avqustun 18-də Almaniyanın Potsdam Universitetinin nəzdində Avropa Yəhudi Təhsili Mərkəzinin açılışı olub. Bu barədə "religion.orf.at" xəbər verib. Mərkəzin məqsədi ravvin yetişdirməkdir. Mərkəzdə sinaqoq da inşa olunub. Bu, Almaniyada universitet nəzdində açılan ilk sinaqoq və Potsdamda Holokostdan sonra tikilmiş ilk yəhudi ibadət evidir.

250-yə yaxın adamın iştirakı ilə baş tutan açılış mərasimində Prezident Frank-Valter Ştaynmayer çıxış edərək mərkəzi ölkəyə hədiyyə adlandırıb. O vurğulayıb ki, mərkəz təkcə ravvinlərin yetişdirilməsi ilə məşğul olmayacaq, digər dinlərin mənsubları da buraya gələrək yəhudi mədəniyyəti, dini və cəmiyyəti ilə tanış ola bilərlər. Prezident həmçinin dini dözümlülüyə və antisemitizmə qarşı mübarizəyə çağırıb, antisemitizmin Almaniyada yenidən aktiv şəkildə özünü göstərməyə başlamasından təəssüfləndiyini bildirib.

Hazırda 80-ə yaxın tələbənin oxuduğu Avropa Yəhudi Təhsil Mərkəzi, əslində, Potsdam Universiteti nəzdində yəhudi ilahiyyat məktəbidir. Burada Abraham Geyger Kolleg və Zaharias Frankel Kollecinin ravvin seminarları tədris olunacaq.

# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər - şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abasov Samir Adəm oğlu



Şəhid Abasov Samir Adəm oğlu 2001-ci il avqustun 24-də Şabran rayonunun Uzunboyad kəndində dünyaya gəlib. O, 2008-ci ildə Səməndər Musayev adına Uzunboyad kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2019-cu ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2020-ci ilin yanvarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Şabran rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılan Samir hərbi xidmətə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə başlayıb. Düşmənlə üzbəüz postlarda xidmət edən əsgər Abasov daim öz üzərində işləyib fiziki və döyüş hazırlığını inkişaf etdirib. Beləliklə, o, Vətən müharibəsinə qədər hərbi bacarıqlara yiyələnib döyüşə hazır vəziyyətdə olub. Qəhrəmanımız müharibə ərəfəsində Tap Qaraqoyunlu kəndində düşmənlə üzbəüz postda xidmətini davam etdirirdi.

Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsindən sonra müzəffər ordumuzun əsk-hücuma keçməsi ilə az müddətdə düşmən üzərində üstünlük əldə edildi. Samir Vətən müharibəsinin ilk günündən həmlə qruplarında döyüşlərə qatılıb. Əvvəlcə Suqovuşan və Talış cəbhələrində savaşıb. Sonrakı döyüş yolu Laçın rayonu istiqamətində olub. 19 yaşlı döyüşçü düşmənlə savaşda şücaəti ilə hərbçi yoldaşlarının rəğbətini qazanıb. Təkcə ailəsinin yox, eləcə də təhsil aldığı məktəbin, yaşadığı kəndin sevimlisi olan Samir son döyüşə yollanmazdan əvvəl ailəsi ilə əlaqə saxlayıb. O, düşmənin məhv edildiyini, tezliklə bütün torpaqlarımızın düşməndən azad olunacağını bildirib. Qəhrəmanımız oktyabrın 13-də Laçın rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən yaxınlığına düşən düşmən mərmisinin partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıb. O, oktyabrın 15-də Şabran Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhid Samir Abasov subay idi, onun iki qardaşı və bir bacısı var.

Cəsurluğu və qəhrəmanlığı ilə adını tariximizə əbədi yazan əsgər Abasov Samir Adəm oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abasov Seymur Adil oğlu



Şəhid Abasov Seymur Adil oğlu 1999-ci il avqustun 10-da Cəlilabad rayonunun Buravar kəndində anadan olub. Seymur 2006-cı ildə Buravar kənd tam orta məktəbin 1-ci sinfinə gedib. 2017-cü ildən isə həmin məktəbin 11-ci sinfini bitirib. O, 2017-ci ilin oktyabrında SHXÇDX-nin Cəlilabad rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayan qəhrəmanımız fiziki və hərbi hazırlığını inkişaf etdirir, təlimlərdə verilən hədəfləri dəqiqliklə vurmağı bacarır, hərbi nizamnamələrin tələblərini yerinə yetirirdi. Buna görə də o, xidməti ərzində bir neçə dəfə fəxri fərmanlara layiq görülüb, ailəsinə təşəkkür məktubları göndərilib.

2019-cu ildə hərbi xidmətini başa vurub doğma kəndlərinə qayıtdıqdan sonra kənd təsərrüfatı işləri ilə məşğul olmağa başlayıb. Seymur Vətən müharibəsi ərəfəsində ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün SHXÇDX-yə müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

Vətən müharibəsi başlayandan bir gün sonra - 28 sentyabrda Seymura çağırış vərəqəsi gəlir. O, sentyabrın 29-da Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir neçə gün orada qaldıqdan sonra oktyabrın 3-də Füzuli istiqamətindən döyüşlərə qoşulub. Cəbrayıl və Qubadlı uğurunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərən Seymurun adı Qubadlı şəhərini işğaldan azad edən igidlər arasında çəkilir. Döyüş yoldaşı Cəfər Əlizadə deyir ki, Cəbrayıl və Qubadlı istiqamətindəki gərgin döyüşlərdə tağım komandiri vəzifəsini icra edən Seymur düşmənin onlarla canlı qüvvəsini məhv edib, bir neçə hərbi texnikasını ələ keçirib. Seymur Qubadlıda gedən şiddətli döyüşlər zamanı düşmən təxribatının qarşısını alarkən oktyabrın 29-da yaxınlığına düşən minomyot mərmisindən qəlpə yarası alaraq şəhid olub. O, oktyabrın 30-da Buravar kəndində uğrunda canından keçdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi.

İgidliyi ilə adını vətən tariximizin şanlı səhifəsinə yazan əsgər Abasov Seymur Adil oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbasov İsa Faiq oğlu



Şəhid Abbasov İsa Faiq oğlu 1996-cı il avqustun 2-də Gəncə şəhərində anadan olub. O, 2003-cü ildə Mirzə Abbas Abbaszadə adına Gəncə şəhər 20 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib. 2014-cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirərək, məzun adına layiq görülüb. Məktəb illərində öz bilik və bacarığı, eləcə də nümunəvi davranışlarına görə örnək olan İsa 2014-cü ildə Gəncə Dövlət Universitetinə daxil olub. O, "Tarix müəllimliyi" ixtisası üzrə ali təhsil alıb. 2018-ci ildə universiteti bitirən İsa SHXÇDX-nin Gəncə şəhər Kəpəz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılıb. O, Müdafiə nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. Fiziki və hərbi hazırlığı ilə seçilən qəhrəmanımız komandirlərin verdiyi əmr və tapşırıqları vaxtlı-vaxtında, düzgün yerinə yetirib, əsgər adını daim uca tutub, kollektiv içərisində böyük hörmətə malik olub. İsa 2019-cu ildə müddətli hərbi xidmətini uğurla başa vurub.

2020-ci ilin iyulunda Ermənistanın yeni işğalçılıq niyyətlərini gerçəkləşdirmək məqsədilə təxribatlara başlaması "yatmış vulkan" misallı oğullarımızı qəzəb atına mindirdi. Nəhayət, düşmənə həddini bildirməyin vaxtı gəldiyini bildirdi. Bu oğullar intiqam gününün yaxınlaşdığını hiss edirdilər. İsa da minlərlə gənclərimiz kimi SHXÇDX-yə gedərək qeydiyyatdan keçir və cəbhəyə çağırılacağı günü səbrsizliklə gözləməyə başlayır.

2020-ci il 27 sentyabrda Vətən müharibəsi başladıqdan sonra 28 sentyabrda ordu sıralarına çağırılan İsa Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir neçə gün orada qaldıqdan sonra könüllü olaraq ön cəbhəyə gedib. O, Cəbrayıl rayonu istiqamətindən döyüşlərə qoşulub. Füzuli və Xocavənd cəbhəsində bir çox yaşayış məntəqələrinin, o cümlədən, Şuşa şəhərinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Qəhrəmanımız noyabrın 9-da Şuşa şəhərində şəhid olub. O, noyabrın 14-də Gəncə Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

İsa subay idi.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək igidliyi ilə adını tariximizin şanlı səhifəsinə yazan əsgər Abbasov İsa Faiq oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2019

## QÜDS

Dünyanın ən qədim şəhərlərindən biri olan Qüds (Yerusəlim) Qərbi Asiyada, Aralıq dənizi ilə Ölü dənizin arasındakı yaylada yerləşir. Əsası e.ə. IV minillikdə qoyulduğu deyilən Qüdsə tarix boyu 52 dəfə hücum edilib, şəhər 44 dəfə tutulub və geri qaytarılıb, 23 dəfə mühasirəyə alınıb və 2 dəfə dağıdılıb. Qüdsün müxtəlif dövrlərdə "Beytül-Məqdis", "Qüds", "UrŞalim", "Yebus", "Aelia" və "Müqəddəs Torpaq" kimi fərqli adlarla adlandırılması onun tarix boyu bir çox dövlətin, sülalənin hakimiyyəti altında olması ilə əlaqədardır. Bəzi mənbələrə görə, Orta Misir Krallığının məxfi mətnlərində "Ruşalim" adlanan bir şəhərdən bəhs olunur. Lakin bu fikir hamılıqla qəbul edilmir. Dəqiq olaraq isə Yerusəlimin adı Abdi-Hebanın (Amarna dövründə Yerusəlimin yerli başçısı olmuşdur) Amarna məktublarında "Uruşalim" kimi qeyd olunub (e.ə. 1330-cu illər).

Bir çox xarici mənbədə "Yerusəlim" adının qədim dövrlərdə bu ərazilərin "Şalem" adlı tanrısı ilə bağlı olduğu deyilir. Şəhər Roma dövründə "Aelia", ərəblərin dövründə isə "Beytül-Məqdis" və "Qüds" (ərəb dilində "əl-Qüds" şəkildə keçir, "Müqəddəs" və ya "Müqəddəs Ziyarətgah" mənasını verir) adlanmışdır.

Qüds üç səmavi dinin - Yəhudilik, Xristianlıq və İslamın müqəddəs şəhəridir. Demək olar ki, dünya əhalisinin yarıdan çoxu üçün bu şəhər müqəddəsdir. Qüdsdə bu dinlərin ən dəyərli ibadət ocaqları, məbədləri yerləşir. Qüds üç böyük din arasındakı ortaq nöqtə, ortaq dini-mənəvi dəyər kimi bəşəriyyət tarixində xüsusi əhəmiyyət daşıyır. Qurani-Kərimin ("Ənbiya", "Səba", "Sad" və s.) surələrində, Tövratın (Bereşit 12:1, I Padşahlar 8:27-30 və s.) və İncilin (Luka 13:33 və s.) fəsillərində Qüds haqqında bəhs edilir.

Qüdsü yəhudilər üçün müqəddəs edən Davud peyğəmbərin "Əhd sandığı"nı buradakı Sion təpələrində qurduğu çadırda qoruması, onun oğlu Süleyman peyğəmbərin isə e.ə. 965-ci ildə bu qaya üzərində məbəd ucaltmasıdır. Tövrat və Zəburda şəhərin adı dəfələrlə çəkilir. Yəhudi dini əsərlərindən olan Talmudda Yerusəlim haqda belə bir bölmə var: "Ey Yerusəlim, səni unutsam, sağ əlim qurusun. Yerusəlim, səni ən böyük sevincimdən üstün tutmasam, dilim damağıma yapışsın!.."

İsa peyğəmbərin bu şəhərdə yaşaması və burada çarmıxa çəkilməsi buranı xristianlar üçün müqəddəs edib. Xristianlıq tarixi də elə bu şəhərdən başlayır. İsa peyğəmbərin "Tanrının şəhəri" adlandırdığı Yerusəlim günümüzdə də xristianlar üçün müqəddəsdir. Burada Xristianlığa aid kilsələr və müqəddəs ziyarət məkanları mövcuddur. İsanın çarmıxa çəkildiyi yerdə olan Müqəddəs Məzar kilsəsi, romalı əsgərlərin İsanın başına tikanlı zeytun budağı qoyduqları Cəza kilsəsi, Məryəmin ata və anasının yaşadıqları evin yerində tikilən Müqəddəs Anna kilsəsi, Rus və Yunan pravoslav kilsələri və s. xristianların bu gün də müqəddəs sayıb ziyarət etdikləri məkanlardandır. Hər il milyonlarla xristian İsanın gəzib-dolaşdığı bu müqəddəs şəhərə ziyarətə yollanır.

Qüds müsəlmanların ilk qibləsi olmuşdur. Bu şəhər İslamda Məkkə və Mədinədən sonra üçüncü müqəddəs şəhərdir. Burada müsəlmanların ilk qibləsi olan "əl-Əqsa" məscidi yerləşir. Bu mübarək məkanın inşasına Davud peyğəmbər tərəfindən başlanıldığı və oğlu Süleyman peyğəmbər tərəfindən tamamlandığı rəvayət olunur.

"Əl-Əqsa" Məkkədəki "Məscidül-Haram"dan sonra tikilən ən qədim ikinci məscid hesab olunur.

Qüdsü müsəlmanlar üçün müqəddəs edən səbəb ilk qiblə olmasıyla yanaşı, həm də Məhəmməd peyğəmbərin buradan merac etməsi ilə bağlıdır. "İsra" surəsinin birinci ayəsində göstərilir ki, Peyğəmbər Məkkədəki "Məscidül-Haram"dan "Məscidül-Əqsa"ya gəlmiş və məhz buradan merac etmişdir. Rəvayətlərə görə, bu hadisə Rəcəb ayının 27-ci gecəsi baş vermişdir.

"Əl-Əqsa" Əməvilər sülaləsinin hakimiyyəti dövründə böyüdülərək genişləndirilmiş və 705-ci ildə tikintisi tamamlanmışdır. Daha sonralar müxtəlif səbəblərdən bir neçə dəfə dağıdılan məscid yenidən inşa edilmişdir. Bugünkü məscid binası 1033-cü ildə zəlzələ nəticəsində dağıldıqdan sonra Fatimilər tərəfindən tikilən variantıdır. Sonralar bir çox hökmdar tərəfindən müxtəlif elementlərlə bəzədilmişdir.

Yerusəlimdəki "Məscidül-Əqsa"dan başqa, altıgünbəzli məşhur "Qübbətüs-Səhra" məscidi də müsəlmanların ziyarət məkanlarından hesab edilir. Bu məscid müasir dövrümüzə qədər gəlib çıxan ən qədim İslam tikililərindən biridir. Bəzilərinin yanlış olaraq "əl-Əqsa" kimi bildiyi məscid, əslində, "Qübbətüs-Səhra" məscididir. "Əl-Əqsa" məscidi isə bu abidənin qiblə istiqamətində yerləşən, ondan daha böyük və geniş başqa bir abidədir. Bu tikili müsəlmanlar arasında məsciddən çox ziyarətgah kimi tanınır.



"Qübbətüs-Səhra" 685-691-ci illərdə Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvan tərəfindən inşa etdirilmişdir. Müsəlman memarların ilk dəfə olaraq qübbə formasında inşa etdikləri bu məscid səkkizguşəlidir. "Müəlləq" adlı bir qayanın üzərində inşa edildiyinə görə bu tikiliyə "Qübbətüs-Səhra", yəni "qayanın qübbəsi" adı verilmişdir. Hədislərdə bu qaya "səhratullah", yəni "Allahın qayası" adlanır. O, xristianlar və yəhudilər üçün də müqəddəs sayılır.

1099-cu ildə Xaç yürüşü zamanı Qüdsün xristianların əlinə keçməsindən sonra məscid "Templum Domini" adlı kilsəyə çevrilmiş və müxtəlif dəyişikliklərə məruz qalmışdır. Lakin 1187-ci ildə Səlahəddin Əyyubi Qüdsü geri qaytardıqdan sonra xaçlıların abidə üzərində etdiyi dəyişikliklər düzəldilmişdir.

Əməvilər tərəfindən inşa edilərkən binanın fasadı Bizans üslublu mozaikalarla bəzədilmişdir. Bu mozaikaların İslam memarlığına uyğun gəlmədiyini düşünən Osmanlı hökmdarı Sultan Süleyman Qanuni tikilini əsaslı şəkildə təmir etdirmiş və zədələnmiş xarici mərmər mozaikalar çini kaşılarla əvəz olunmuşdur.

1927-ci ildə Fələstində baş verən zəlzələ nəticəsində zədələnən abidə İordaniya, Türkiyə və digər ərəb ölkələrinin yardımı ilə əsaslı təmir edilmişdir. "Qübbətüs-Səhra" hazırda məscid və ziyarətgah kimi bütün müsəlmanların istifadəsindədir.

Məscidin xarici divarları səkkizbucaqlı, daxili quruluşu isə dairəvidir. Divarlar qiymətli çini kaşılarla bəzədilmişdir. Qızıl mozaika ilə işlənilmiş mərkəzi qübbəni daxildən yaşıl porfirdən düzəldilmiş sütunlar və qızılla üzlənmiş sütun başlıqları saxlayır.

Qüdsün müqəddəs və strateji əhəmiyyət daşıması onun tarix boyu dövrün ən güclü dövlətlərinin marağında olmasına səbəb olmuşdur. Qüds Qədim Misir dövründən Osmanlıya qədər nəhəng imperiyaların, Ərəb xilafətinin, Məmlüklərin və s. tərkibində olmuşdur. Şəhərə, demək olar ki, ən çox Osmanlı imperiyası hökmranlıq etmişdir. 400 il (1517-1917-ci illər) Osmanlı idarəçiliyində olan şəhər bir neçə dəfə təmir edilmişdir. Xüsusən də Qanuni Sultan Süleyman, IV Sultan Murad, Sultan Əbdülməcid, Sultan Əbdüləziz və II Əbdülhəmidin dövründə genişmiqyaslı təmir işləri aparılmışdır. Qanuni Süleyman dövründə Qüds şəhərinin divarları yenidən tikilmiş, şəhər qalası bərpa olunmuşdur. Bir çox çeşmə, Qaya Günbəzinin döşəməsi, "Məscidül-Əqsa"nın divarları və qapıları bərpa təmir edilmişdir.

1917-ci ilin sonlarında İngiltərə qoşunları şəhəri tutaraq özünün Fələstin mandatlı ərazisinin inzibati mərkəzinə çevirmişdir. 1947-ci ildə BMT Baş Məclisinin qərarı ilə Qüds şəhəri BMT-nin idarəsi altında beynəlxalq xüsusi rejimli müstəqil inzibati vahid statusu almışdır. Lakin sonradan baş vermiş İsrail-Fələstin və İsrail-Ərəb müharibələri nəticəsində şəhər iki hissəyə bölünmüşdür. Qərb (ərazicə böyük hissə) İsrailə, şərq hissə isə İordaniyaya verilmişdir. 1950-ci ildə İsrail şəhərin qərb hissəsini özünün paytaxtı elan etmiş, 1967-ci ildə isə şərq hissəsini də öz ərazisinə qatmışdır.

Qüdsdə hər üç səmavi dinin abidələri vardır. Şəhərin şərq hissəsində qədim dövr abidələrinin qalıqları, daha doğrusu, xarabalıqları qalmaqdadır. Şəhərin qərb hissəsi XIX əsrin ikinci yarısından tikilməyə başlanmışdır. Burada çoxsaylı ictimai binalar, yeni universitet kompleksi, tibb mərkəzi, otellər, hökumət binaları, muzey və kitabxanalar və s. inşa edilmişdir.

Qüds 2019-cu ildə İslam Mədəniyyətinin paytaxtı seçilmişdir.

**Hazırladı**: Tural Vəlizadə

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini avqust ayı ərzində də davam etdirmişdir. Maarifləndirmə tədbirləri pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən əsasən videokonfrans formatında, bəzi bölgələrdə isə zəruri qaydalara əməl olunmaqla ənənəvi qaydada təşkil olunmuşdur.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**3 avqust** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Narkomaniya – ümumbəşəri bəla" mövzusunda;

**5 avqust** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Hacıqabul Rayon İcra Hakimiyyəti (RİH), Rayon Gənclər və İdman İdarəsi (RGİİ), rayon Mədəniyyət Evinin əməkdaşlarının iştirakı ilə "Vətənpərvərlik: milli və mənəvi dəyər kimi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonunda "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;



**6 avqust** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və QMİ-nin Kürdəmir rayonu üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə "Aşura mərasimi: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə "Aşura mərasimi: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Şabran rayonunda "Pandemiya dövründə dini mərasim, ayin və tədbirlərin təşkili" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Biləsuvar RGİİ-nin birgə təşkilatçılığı ilə "Azərbaycan xalqının tolerantlıq ənənəsi sülhün və birgəyaşayışın mühüm şərtidir" mövzusunda;

**9 avqust** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və QMİ-nin Goranboy rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Məhərrəm ayı ilə əlaqədar;

10 avqust – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və QMİ-nin Şəki-Oğuz bölgə qazılığının təşkilatçılığı ilə "Pandemiya dövründə dini mərasim, ayin və tədbirlərin təşkili" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və QMİ-nin Salyan rayonu üzrə qazılığının birgə təşkilatçılığı ilə "Dini mərasimlər və öhdəliklər" mövzusunda;

**11 avqust** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran ŞGİİ-nin birgə təşkilatçılığı ilə "Pandemiya şəraitində dini mərasim, ayin və tədbirlərin təşkili" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə bölgənin ərazisinə daxil olan şəhər və rayonların rəsmi din xadimləri və icma sədrlərinin iştirakı ilə "Aşura mərasimləri: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki ŞİH və ŞGİİ-nin birgə təşkilatçılığı ilə "Tolerantlığın və multikulturalizmin Azərbaycan modeli" mövzusunda;

**12 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayonunda "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz RİH, Ombudsmanın Şəki Regional Mərkəzi, Oğuz RGİİ, rayon Təhsil Şöbəsi və Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Narkomaniya – ümumbəşəri bəla" mövzusunda; DQİDK-nın Ucar



bölgəsi üzrə şöbəsi və Göyçay Gənclər Evinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, QMİ-nin Quba və Şabran bölgələri üzrə qazılıqlarının birgə təşkilatçılığı ilə Quba şəhəri "Ərdəbil" məscidində "Pandemiya dönəmində məscidlərdə ibadətlərin icra olunması" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**13 avqust** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Qobustan RGİİ və Qobustan rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycan xalqının tolerantlıq ənənəsi sülhün və birgəyaşayışın mühüm şərtidir" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və Hacıqabul RGİİ-nin birgə təşkilatçılığı ilə "Azərbaycan xalqının tolerantlıq ənənəsi sülhün və birgəyaşayışın mühüm şərtidir" mövzusunda;

**16 avqust** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH, rayon Polis şöbəsi və "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və QMİ-nin Kürdəmir rayonu üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə dini mərasimlərlə bağlı;

**17 avqust** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə Məhərrəmlik mərasimləri ilə bağlı;

**18 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunda "Milli dövlətçiliyimizin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**20 avqust** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi,



Saatlı RİH, rayon Polis şöbəsi və Saatlı Rayon Gənclərin İnkişaf və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" mövzusunda;

**24 avqust** - DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayonunda "Azərbaycan xalqının tolerantlıq ənənəsi sülhün və birgəyaşayışın mühüm şərtidir" mövzusunda;

**25 avqust** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Narkomaniya gəncliyə yönəlmiş terrordur" mövzusunda;

**26 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Yeni Azərbaycan Partiyası Yevlax Rayon Təşkilatı, Yevlax ŞGİİ, Yevlax şəhər Heydər Əliyev Mərkəzi və Yevlax şəhər Gənclər Evi sosial xidmət müəssisəsinin iştirakı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonunda "Gənclər arasında erkən nikah hallarına qarşı mübarizə" mövzusunda;

**27 avqust** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində Ağdaş rayonunda "Mənəvi dəyərlərimiz: sülh və humanizmə baxış" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Vətənpərvərlik: milli və mənəvi dəyər kimi" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən müəllimlərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən video-konfranslar zamanı bölgələrdəki dini durum müzakirə olunub, karantin dövrü olduğundan din xadimlərinin üzərinə düşən vəzifələr, cari dövrdə yas mərasimlərinə qoyulan bəzi məh-



dudiyyətlər və digər ümumi məsələlərlə bağlı fikirlər səsləndirilib. Din xadimlərinin pandemiya dövründə, əsasən dəfn və yas mərasimlərində Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanıb. Eyni zamanda Məhərrəm ayı ilə bağlı tədbirlərin, xüsusilə Aşura mərasiminin mövcud qaydalara uyğun şəkildə keçirilməsinin zəruriliyi diqqətə çatdırılıb.

Çıxışlar zamanı milli dövlətçiliyimizin, milli kimliyimizin formalaşmasında və möhkəmlənməsində milli-mənəvi dəyərlərin oynadığı rolun önəmi vurğulanıb, gənc nəslin mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirilməsinin vacibliyindən danışılıb. Qeyd olunub ki, Azərbaycan dövləti mənəvi dəyərlərin təbliğ olunması və ənənəvi dini baxışlarımızın qorunub saxlanması sahəsində layihələr icra etməkdədir.

Tədbirlərdə ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri haqqında ətraflı məlumat verilib, bu günün gənclərinin gələcək nəslin davamçıları olaraq dini radikalizm və dini ekstremizm barəsində məlumatlı olmasının vacibliyi vurğulanıb. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar qardaşlıq, dostluq və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayan natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildiriblər.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan video-konfranslar qarşılıqlı diskussiya şəklində baş tutub. Çıxış edənlər öz təkliflərini səsləndiriblər. Tədbirlərin sonunda isə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BÖLGƏLƏRDƏ DÖVLƏT KOMİTƏSİNİN SİFARİŞİ İLƏ NƏŞR OLUNAN KİTABLARIN TƏQDİMATI KEÇİRİLİB

Bölgələrdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) 20 illik fəaliyyətinə və Komitənin sifarişi ilə nəşr olunan kitabların təqdimatına həsr olunmuş tədbirlər keçirilib. Sözügedən tədbirlər avqustun 3-də DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy Rayon İcra Hakimiyyətinin (RİH), avqustun 4-də DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı rayon Gənclər və İdman İdarəsinin, avqustun 10-da DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli Rayon Mərkəzi Kitabxana Sisteminin, avqustun 11-də isə DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayonu Xanqərvənd kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə baş tutub. Rayon mərkəzi kitabxanalarının oxu zalında keçirilən tədbirlərdə təşkilatçı qurumların əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Çıxışlar zamanı Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə müxtəlif adda dini təyinatlı ədəbiyyatların çap edilməsindəki əsas məqsədin gənclərin radikal təsirlərdən və yad dini ideologiyalardan qorunması, ölkəmizin tolerant və multikultural ənənələrinin, milli-mənəvi dəyərlərimizin təbliği olduğu bildirilib.

Natiqlər dini icmaların fəaliyyətinin yaxşılaşdırılması üçün dövlət tərəfindən onlara zəruri dəstəyin verildiyini qeyd edib, İslam dini icmaları ilə yanaşı, qeyri-müsəlman dini icmalarına da hörmət və qayğı ilə yanaşıldığını vurğulayıblar. Həmçinin cəmiyyət arasında düzgün dini maarifləndirmənin aparılmasında, dinin olduğu kimi topluma çatdırılmasında din xadimlərinin üzərinə böyük vəzifə düşdüyünü diqqətə çatdırıblar.

Tədbir iştirakçılarına sərgidə nümayiş edilən dini təyinatlı ədəbiyyatlar barədə məlumat verilib və kitab hədiyyələri təqdim edilib.

# Qeyri-kommersiya dini qurumlarının dövlət reyestr (Dini qurumların dövlət reyestri) məlumatları

## "Masallı rayonu Ərkivan qəsəbəsi "Hacı Mirkərim Ağa" məscidi" dini icması

**Qeydiyyat tarixi:** 16 dekabr 2009-cu il
**Qeydiyyat №-si:** 100109A3-115

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Ağaməd Xanali oğlu, Teymurov Hafis Şahbaz oğlu, Əliyev Davud Mirabdulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məcidov İlqar Məmməd oğlu, Teymurov Şəhadət Hafis oğlu, Əliyev Mirnuh Davud oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 05 avqust 2021-ci il

## "Masallı rayonu Alışanlı kənd məscidi" dini icması

**Qeydiyyat tarixi:** 20 may 2011-ci il
**Qeydiyyat №-si:** 100111A1-523

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abbasov Niftulla Novruz oğlu, Məmmədov Yolçu Eyvaz oğlu, Məmmədov Axan Abdul oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əliyev Raqil Bayraməli oğlu, Əliyev Xudakərim Məmmədhüseyn oğlu, Əliyev Raqif Bayraməli oğlu, Əliyev Hüseynqulu Əlihüseyn oğlu, Abasov Saleh Niftulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Abbasov Niftulla Novruz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əliyev Raqif Bayraməli oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 11 avqust 2021-ci il

## "Masallı rayonu Öncəqala kənd məscidi" dini icması

**Qeydiyyat tarixi:** 14 yanvar 2010-cu il
**Qeydiyyat №-si:** 100110A1-165

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Əhməd Xəlil oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Hüseynzadə Mühacir İbadulla oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Hüseynov Əhməd Xəlil oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Hüseynov Dünyamalı Muştaba oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 11 avqust 2021-ci il

## "Lənkəran rayonu Hirkan qəsəbə məscidi" dini icması

**Qeydiyyat tarixi:** 14 noyabr 2016-cı il
**Qeydiyyat №-si:** 100116C-717

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Fərzi Feyzulla oğlu, Məmmədov Məmmədəli Əli oğlu, Həsənova Mənzər Əli qızı, Şərifov Fayaz Qədir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mirzəyeva Xanım Novruz qızı, Xalıqov Şirəli Arif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 11 avqust 2021-ci il

## "Göyçay rayonu Çaxırlı kənd məscidi" dini icması

**Qeydiyyat tarixi:** 27 mart 2014-cü il
**Qeydiyyat №-si:** 100114A1-565

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsgərov Dursunəli Fəs oğlu, İbadov Məhbus Əfsər oğlu, Əsgərov Əli Əsgər oğlu, Qasımov Musa Bəkir oğlu, İbadov Kamil Eynulla oğlu, Mehdiyev Şakir Qafur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbrahimov Ruslan İbrahim oğlu, Qasımov Mikayıl Həsən oğlu, Namazov Qurban Üzeyir oğlu, Qasımov Vüsal Malik oğlu, Qasımov Bəkir Musa oğlu, İbrahimov Əhməd Məhsum oğlu, Qasımov Tural Mikayıl oğlu, Abdullayev Rəmal Eldəniz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Mehdiyev Rayıb Nuru oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qasımov Mikayıl Həsən oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 18 avqust 2021-ci il

# QANADA 4 ÖLKƏNİN ALİ DİNİ İYERARXI MÜASİR KÖLƏLİKLƏ MÜBARİZƏYƏ DAİR BƏYANNAMƏ İMZALAYIBLAR

Qanada bölgənin 4 ölkəsinin ali dini iyerarxları müasir köləliklə mübarizəyə dair bəyannamə imzalayıblar. Bəyannamə dörd Afrika ölkəsi - Qana, Konqo Demokratik Respublikası, Nigeriya və Kot-d'İvuardan (Fil Dişi Sahili) olan 14 ali din xadimi tərəfindən imzalanıb.

Bəyanat "Walk Free" insan hüquqları təşkilatı tərəfindən başladılan "Qlobal Azadlıq Şəbəkəsi" (Global Freedom Network) hərəkatının təşəbbüsü ilə ortaya çıxıb. Təşkilatın məqsədi insan alverinə qarşı mübarizə aparmaqdır.



"Müasir köləlik" termini ilə insan alveri, məişət zorakılığı, məcburi uşaq əməyinin ağır formaları, yetkinlik yaşına çatmayanlar da daxil olmaqla məcburi evliliklər nəzərdə tutulur. Bəyanatda insan alveri qurbanlarının sayının ən azı 40 milyon olduğu göstərilir.

Qananın baş milli imamının sözçüsü Şeyx Armiyavo Şaybu qeyd edib ki, bütün böyük dünya dinləri köləliyi ağır cinayət kimi qınayır. Onun sözlərinə görə, mənəvi rəhbər Qana cəmiyyətində xüsusi mövqeyə sahibdir; onun mənəvi xidməti və geniş təcrübəsi isə insanlarda başqaları tərəfindən nəzərə çarpmayan ən kiçik dəyişiklikləri görməyə imkan verir. Beləliklə, ali iyerarx və bütövlükdə din xadimləri özlərinin xüsusi mövqeyi və insan ruhunun vəziyyətlərinə yüksək həssaslığı sayəsində bu cinayət qurbanlarının, onların cinayətkar qul alverçiləri ilə əlaqələrinin müəyyənləşdirilməsində, özünəməxsus imkanlara malikdirlər.

CƏMİYYƏT və DİN
№ 08 (358) AVQUST 2021-ci il

## "SƏUDİYYƏ HAVA YOLLARI"NIN TƏYYARƏLƏRİNDƏ İLK DƏFƏ QADINLAR STÜARDESSA KİMİ FƏALİYYƏTƏ BAŞLAYIBLAR



Səudiyyə Ərəbistanında qadınların polis və orduya cəlb edilməsinin ardınca onlar üçün yeni iş yeri açılıb.

"Arabnyus" qəzetinin məlumatına əsasən, ötən ilin dekabrında 50 səudiyyəli qadının işə götürüləcəyi barədə elan verən "Saudia" aviaşirkəti artıq Ciddə və Ər-Riyadda yerli stüardessaların uçuşlara qatılmasını təmin edib. Onların işə qəbulu zamanı irəli sürülən şərtlər 20-30 yaş arası olması və ingilis dilində səlis danışması olub. Aviaşirkət pilotların da tamamilə yerli kadrlardan olacağını bildirib. Onların arasında ötən il təyyarə sükanı arxasına keçmiş ilk qadın pilot Yasmin Əl-Məymani də var.

Aşağıbüdcəli Səudiyyə Ərəbistanının "Flynas" aviaşirkəti də qadın stüardessaların işə qəbuluna start verib.

## ÇİNDƏ ÜÇÜNCÜ UŞAĞI DÜNYAYA GƏTİRMƏYƏ İCAZƏ VERƏN QANUN QƏBUL OLUNUB



Çinin ali qanunverici orqanı olan Xalq Nümayəndələri Yığıncağının daimi komitəsinin iclasında "Əhali və ailə planlanması haqqında" Qanuna düzəliş edilib. Düzəliş ailələrə 3-cü uşağı dünyaya gətirməyə icazə verir.

Qanuna edilmiş düzəliş 3-cü uşağı dünyaya gətirmək istəyən ailələrin üzərinə düşən maliyyə yükünü azaltmaq üçün dəstək tədbirlərinin, o cümlədən sığorta, təhsil, iş yeri, mənzil təminatı sahəsində güzəştlərin tətbiqinə imkan yaradacaq.

Qeyd edək ki, 2016-cı ildə Çin hökuməti gözlənilən demoqrafik problemin qarşısını almaq üçün 1982-ci ildən tətbiq olunan "Hər ailəyə bir uşaq" siyasətini ləğv edib. Ailələrə ikinci uşağı dünyaya gətirməyə imkan verən bu qərarın müəyyən müsbət nəticələri olsa da, əhalinin "yaşlanması"nın qarşısını ala bilməyib. Xüsusən şəhərlərdə uşaq böyütməyin bahalı olması və gənc qadınların karyera məsələləri ailələrin bir uşaqla kifayətlənmək ənənəsini yaradıb ki, bu da doğum sayının azalmasına gətirib çıxarıb.

Yaşlı insanların sayının artması isə əməkqabiliyyətli təbəqənin azalmasına səbəb olmaqla yanaşı, əsas dövlət xidmətlərinin göstərilməsinə təzyiqləri artıracaq.

## LALƏ FORMALI KİÇİK ADA



Amerikalı memar Tomas Xezervikin layihəsi əsasında bu yaxınlarda Hudson çayında açılan "Little Island Park" artıq müasir Nyu-Yorkun yeni simvollarından biri adlandırılır.

Kiçik adanın əsas elementi lalə formalı beton sütunlardır. 132 beton sütunun hamısı bənzərsiz formalara və fərqli yük qabiliyyətlərinə malikdir.

Kiçik adanın ümumi sahəsi təxminən 9700 kvadratmetrdir. Bu müasir park iki körpü ilə materikə bağlıdır. Kiçik olmasına baxmayaraq, "kiçik ada" zəngin bitki örtüyünə malikdir. Burada 400 növ bitki və gül, habelə əksəriyyəti həmişəyaşıl olan 100 ağac növü əkilib.

Yaşıl sahələrdən başqa, parkda 700 yerlik amfiteatr, kafe, 200 tamaşaçı üçün kiçik bir səhnə və müşahidə meydançaları var.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Sentyabr - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 19 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## FİRON XUFUNUN "GÜNƏŞ GƏMİSİ" BÖYÜK MİSİR MUZEYİNƏ KÖÇÜRÜLÜB



Təqribən 4600 il yaşı olan Qədim Misir fironu Xufunun "Günəş gəmisi" Böyük Misir Muzeyinə gətirilib.

Bu barədə Misirin Turizm və Qədim Abidələr Nazirliyi məlumat yayıb.

1954-cü ildə kəşf edilən firon Xufunun gəmisi Qədim Misir inanclarına görə, onun mumiyasının olduğu yerdə saxlanılırdı. Firon ölümdən sonrakı həyatında bu gəmi ilə səyahət edəcəyinə inanırdı. Xufunun türbəsinin yerləşdiyi böyük Xeops ehramından Giza yolu ilə Böyük Misir Muzeyinə transfer edilən, 42 metr uzunluğunda və 20 ton ağırlığında olan, qızıl suyu ilə işlənmiş qara örtüyə bürünən gəmi Qahirə sakinləri və turistlərin böyük marağına səbəb olub. Firon Xufunun gəmisi Belçikadan gətirilmiş və uzaqdan komanda ilə idarə olunan xüsusi yük konteyneri vasitəsilə daşınıb və 10 saatdan sonra muzeyə çatdırılıb.

Qeyd edək ki, ötən ilin aprelində Misir Prezidenti Əbdülfəttah əl-Sisinin iştirakı ilə açılışı keçirilən Böyük Misir Muzeyi Qədim Misirin 22 fironunun mumiyasını qəbul etmişdi.

### Yadigar söz

**Tomas Edison**

*Ən böyük səhvimiz, çox tez təslim olmağımızdadır. Uğura gedən ən düzgün yol isə hər dəfə yenidən cəhd etməkdən keçir.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poligraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894